www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 dekabr 2018-ci il Çərşənbə axşamı № 265 (7154) Qiyməti 60 qəpik

Xəbər

## BŞİH Qarabağ Komitəsinin 15 dekabr mitinqinə razılıq vermədi

yazısı səh.2-də

Gündəm

### Bakıda aqrar sektorla bağlı beynəlxalq forum başladı



Ərzaq tələbatının ödənməsində müasir texnologiyaların rolu

yazısı səh.3-də

### Partiyalarda erkən parlament seçkiləri gözləntisi

yazısı səh.5-də

### Hökumətləri "atəşə atan" artım qərarları: müxtəlif ölkələrdə fərqli reaksiyalar...

yazısı səh.13-də

### Rusiya niyə Ermənistanın "nazı ilə oynayır"- səbəblər

yazısı səh.4-də

### "Azərbaycanda siyasi fəaliyyətinə görə heç kim təqib olunmur" - Bahar Muradova

yazısı səh.5-də

### Müxalifət Bakıda "sarı jilet" geyinmək fikrində deyil

yazısı səh.6-da

### İsveçrə Gülnarə Kərimovanın milyonlarını Özbəkistana verəcəkmi...

yazısı səh.10-da

### Qarabağ klanından Paşinyan hakimiyyətinə "şifrəli mesaj"

yazısı səh.11-də

### Dövriyyədən çıxarılan 500-lük avroların taleyi necə olacaq?

yazısı səh.10-da

### İsveçdə Yəmən danışıqları - müharibə və aclığa son qoymaq üçün son şans

yazısı səh.12-də

### Qohumunu zorlamaqda və şantaj etməkdə ittiham edilən şəxs bəraət aldı

yazısı səh.14-də

# ERMƏNİLƏR RUSİYADAN UZAQLAŞMAĞA SƏS VERDİLƏR - QARABAĞDA MÜHARİBƏ YAXINLAŞIR?

**Paşinyan kursu dəyişmək üçün xalqdan mandat aldı:** yeni parlamentdə konstitusion çoxluq qərbpərəstlərdə olacaq, erməni lider "iki stul"da otura bilməyəcək; Azərbaycanla böyük sülh, yoxsa müharibə ehtimalı artır?



yazısı səh.8-də

# Azərbaycan bazarında armatur qalmaqalının pərdəarxası

**Ekspert:** "Problemi ölkədəki istehsalda axtarmaq lazımdır"; "Keyfiyyət göstəricilərinin aşağı olması sənədlə, laborator analizlərlə sübut olunmalıdır"

yazısı səh.13-də



### Hüquq müdafiəçiləri Əli İnsanovla görüşməyə ümid edir

yazısı səh.6-da



*İsgəndər Həmidov:*

### "Lider kimi önə çıxmaq məqsədim yoxdur"

yazısı səh.5-də



*Rəşad Məcid:*

### "Əfv sərəncamı Novruz bayramı ərəfəsində olacaq"

yazısı səh.3-də



## Prezident elmi və elmi-pedaqoji kadrların attestasiyası ilə bağlı sərəncam imzaladı

**Prezident İlham Əliyev Azərbaycan Respublikasında elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması işinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Son illər Azərbaycan Respublikasında elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı, elmi innovasiya fəaliyyətinin dəstəklənməsi və elmi nailiyyətlərin stimullaşdırılması sahələrində bir sıra tədbirlər həyata keçirilib.

Bununla yanaşı, müasir dövrün çağırışları yüksək ixtisaslı elmi və elmi-pedaqoji kadrların attestasiyasının aparılması ilə əlaqədar vahid dövlət siyasətinin gerçəkləşdirilməsində, elmi fəaliyyətin mövcud potensiala uyğun monitorinqi, qiymətləndirilmə və proqnozlaşdırılma mexanizmlərinin təkmilləşdirilməsi və səmərəli istifadəsində qabaqcıl beynəlxalq təcrübənin, yeni idarəetmə modelləri və innovativ həllərin tətbiqini zəruri edir.

Bu istiqamətdə elmi işlər, elmi və elmi-pedaqoji işçilər haqqında ölkə üzrə informasiya resurslarının müasir texnologiyalar əsasında formalaşdırılması, vahid elektron informasiya sisteminin yaradılması, elmi fəaliyyətin monitorinqinin və qiymətləndirilməsinin aparılmasında elektron hesabat formalarının, elmmetrik və ekspert yanaşmalarına əsaslanan metodika və meyarların hazırlanması, həmçinin elm sahəsində diaqnostik təhlillərin gücləndirilməsi məsələləri mühüm əhəmiyyətə malikdir.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası iki ay müddətində Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, tabeliyində elm və təhsil müəssisələri olan qurumların təkliflərini nəzərə almaqla, elmi dərəcə və elmi adların verilməsi qaydalarının, elmi fəaliyyətin qiymətləndirilməsi və monitorinqi sahəsində idarəetmənin və tənzimləmənin təkmilləşdirilməsi, elmi tədqiqatlar haqqında məlumat bazasının yaradılması və elmi informasiyanın əlçatanlığının təmin edilməsi, eləcə də analitik, statistik təhlillərin və hesabatların keyfiyyətinin yaxşılaşdırılması üçün vahid elektron məlumat sisteminin yaradılmasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin; Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının fəaliyyətinin təkmilləşdirilməsi barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

## "YPX əməkdaşlarının gizli şəkildə xidmət aparması ləğv edilib"

### BDYPİ yol polisinin gizli xidmət aparması ilə bağlı iddialara münasibət bildirib




**Daxili İşlər Nazirliyi (DİN) Baş Dövlət Yol Polisi İdarəsi son günlər sosial şəbəkələrdə və bəzi kütləvi informasiya vasitələrində yol polisinin gizli xidmət aparması və bu məqsədlə onlara bütün texnikalarla təchiz edilmiş mülki avtomobillərin verilməsi barədə yayılan iddialara münasibət bildirib.**

İdarədən "Report"un sorğusuna cavab olaraq bildirilib ki, həmin görüntülər 4 il bundan əvvəl televiziyalardan birinin efirində gedib: "Hansı ki, həmin vaxt "Yol-patrul xidməti haqqında təlimat" və "Yol hərəkəti haqqında" Qanunla yol polisinin gizli xidmət aparmasına icazə verilirdi. 2017-ci ildə isə "Yol hərəkəti haqqında" Qanuna və adıçəkilən təlimata edilən dəyişikliklərdən sonra ölkədə Yol Patrul Xidməti əməkdaşlarının gizli şəkildə xidmət aparması ləğv edilib".

BDYPİ belə məlumatlar yayan KİV-lərə tövsiyə edir ki, bu tip məlumatları yaymazdan əvvəl aidiyyəti orqanlarla dəqiqləşmələr aparılsın: "Sürücülərin diqqətinə bir daha çatdırılır ki, Azərbaycanda Yol Patrul Xidmətinin əməkdaşları xidməti qanunvericilik çərçivəsində aşkar şəkildə apara bilər. Digər şəkildə xidmət aparılmasına yol verilmir".

# "Məmurlar gətirib pul verəcəklər, sabah da deyəcəklər ki, Goozal bəy bacarmadı" - Abdolbari Goozal

**"Mən mənfəətə çıxarmadığım heç bir müəssisənin səhmlərini IPO-ya (Initial Public Offering - İlkin Kütləvi Təklif) çıxarmaram".**



Bunu "Report"a açıqlamasında "Azersun Holding" MMC-nin sahibi Abdolbari Goozal deyib.

O, bu barədə "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC-nin (İmişli Şəkər Zavodunun idarəçisi) səhmdar cəmiyyətə çevrilməsi və səhmlərinin satışa çıxarılması ehtimalına münasibət bildirərkən danışıb və zavodun hələ ki zərərlə işlədiyini bildirib.

"İmişli Şəkər Zavodu bir neçə ildir ki, yaxşı maliyyə nəticələri göstərmir, zərərlə işləyir. İstəyirik ki, yeni, müasir texnologiyalar tətbiq etməklə məhsuldarlığı artıraq və zavodu ilk öncə mənfəətə çıxaraq. Çünki mən məsuliyyət daşıyıram. Məmurlar gətirib pul verəcəklər, sabah da deyəcəklər ki, Goozal bəy bacarmadı, pulumuz batdı. Məni həm yamanlayacaq, həm də bəd dua edəcəklər", - deyə iş adamı qeyd edib.



## BŞİH Qarabağ Komitəsinin 15 dekabr mitinqinə razılıq vermədi

**Bakı Şəhər İcra Hakimiyyəti Qarabağ Komitəsinin 15 dekabrda Qarabağ mitinqi keçirmək üçün müraciətinə mənfi cavab verib. Bu barədə Qarabağ Komitəsindən verilən məlumatda deyilir. Bildirilir ki, BŞİH cavab məktubunda Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün ölkə prezidenti İlham Əliyev ölkə daxilində və beynəlxalq miqyasda ciddi iş aparır. Eyni zamanda Qarabağla bağlı aparılan danışıqlar şəffaf aparılır, aparılan danışılar və keçirilən tədbirlər, görüşlər barədə Kütləvi İnformasiya Vasitələrində ictimaiyyətə daim məlumat verilir. Qeyd olunanları nəzərə alaraq BŞİH mitinqin keçirilməsini məqsədəuyğun hesab etməyib.**

Qarabağ Komitəsindən bildirilib ki, BŞİH-in cavabı ilə bağlı komitədə müzakirə-aparılacaq. Mitinqin keçirilib keçirilməyəcəyi ilə bağlı yekun qərar bu zaman veriləcək.

❑ E.SEYİDAĞA, Musavat.com




## "Mühacirət irsimizdən: Məhəmməd Əmin Rəsulzadənin otuz məktubu"

**"1905.az kitabı" seriyasından yeni kitab - "Mühacirət irsimizdən: Məhəmməd Əmin Rəsulzadənin otuz məktubu" kitabı işıq üzü görüb.**

Tarix üzrə fəlsəfə doktoru Fərhad Cabbarovun tərtibçiliyi, ön sözü və şərhləri ilə nəşr edilən kitabda Məhəmməd Əmin Rəsulzadənin azərbaycanlı mühacir Süleyman Təkinərə Türkiyədə yaşadığı dövrdə yazdığı məktublar toplanıb. Azərbaycan mühacirəti tarixinin öyrənilməsi üçün qiymətli mənbə rolunu oynayan məktublar 1950-1955-ci illəri əhatə edir. Kitabda həmçinin M.Ə.Rəsulzadənin və S.Təkinərin ayrı-ayrı illərə dair çıxışları, məqalələri və fotoşəkilləri yer alıb.

"1905.az kitabı" seriyasının ideya müəllifi və naşiri Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti, Şamaxının millət vəkili Elxan Süleymanov, seriyanın tərtibçisi siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist Fuad Babayevdir.

## Gəncədə məktəb direktoru icra başçısının müavini təyin edildi

**Gəncə Şəhər İcra Hakimiyyətində (İH) yeni təyinat olub. "Report"un Qərb bürosunun məlumatına görə, Vəfa Nizami qızı Abbasova İcra Hakimiyyəti başçısının müavini - İH-nin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri vəzifəsinə təyin olunub.**



Vəfa Abbasova

Qeyd edək ki, V.Abbasova bundan öncə Gəncə şəhər Cəfər Cabbarlı adına 6 saylı tam orta məktəbin direktoru vəzifəsində çalışıb.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## "İnsan hüquqlarından danışanlar Fransadakı hadisələrə kor oldular" - Ərdoğan

**"İstanbuldakı Gəzi parkı hadisələrində insan haqlarından danışıb, onu müdafiə edənlər, Fransada, Hollandiyadakı etiraz aksiyaları zamanı baş verənlərə münasibətdə lal, kar, kor oldular".**

"Report" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının mərkəzi qərargahında 10 dekabr - Ümumdünya İnsan Hüquqları Günü münasibətilə keçirilən "İnsanlığın mədəniyyəti" və "İnsanlığa ümid: Türkiyə" adlı tədbirdə bildirib.

"Gəzi hadisələrində dünyanı ayağa qaldırırdınız. İndi də eyni işi görün. Etmədilər, hadisələri yayımlamadılar. Çünki səmimi və dürüst deyillər" - deyə Ərdoğan vurğulayıb.

O qeyd edib ki, Türkiyənin demokratiyasına, azadlığına ağız büzənlər bu gün özləri imtahanla üz-üzədir: "Artıq Türkiyəyə kimsə demokratiya dərsi keçə bilməz. Avropaya deyiləcək söz odur ki, mədəniyyət maskası altında gizlətdiyiniz iç üzünüz artıq aşkara çıxıb. Atalar yaxşı deyib: "Bal iylənməz, yağ iylənər, onun da əsli ayrandır".

## Bakıda bayram yarmarkalarına start verildi - 23 yerdə

**Bakıda 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 1 yanvar - Yeni il bayramı münasibətilə bayram yarmarkalarına start verilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) Ticarət və Xidmət Departamentindən «Trend»ə verilən məlumata görə, hər il olduğu kimi, bu il də bayram yarmarkaları ilə bağlı BŞİH və Bakı Şəhər Baş Polis İdarəsi tərəfindən dislokasiya təsdiq olunub. Dislokasiyaya görə, bayram yarmarkaları əsasən şəhərdə, metro stansiyalarının qarşısında quraşdırılıb. Hazırda Nəsimi rayonu ərazisində 6, Nərimanov rayonunda 5, Yasamal rayonunda 3, Binəqədi rayonunda 2, Nizami rayonunda 6, Xətai rayonunda 1 yerdə olmaqla ümumilikdə 12 ərazidə 23 bayram yarmarkası üçün çadırlar quraşdırılıb.

Bayram yarmarkaları 2019-cu il yanvarın 3-dək davam edəcək. Çadırlarda əsasən Yeni il hədiyyələri və meyvə-tərəvəz məhsulları satılır.

Yarmarkaların təşkil edilməsində məqsəd bayram ərəfəsində küçələrdə pərakəndə satışların qarşısını almaq və bazar qiymətlərinə nisbətən ucuz məhsullar təklif etməkdir. Bayram çadırlarının paytaxtın digər metro stansiyalarının qarşısında da quraşdırılması gözlənilir.

Xatırladaq ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən ötən il paytaxtda 13 bayram çadırı qurulmuşdu.

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018

# Bakıda aqrar sektorla bağlı beynəlxalq forum başladı

## Ərzaq tələbatının ödənilməsində müasir texnologiyaların rolu

**Dekabrın 10-da Bakıda aqrar texnologiyalar və yaşıl enerji üzrə Beynəlxalq Forum işə başlayıb. Azərbaycan Diplomatiya Akademiyasında keçirilən forumda 16 xarici ölkədən olan 35 nüfuzlu ekspert iştirak edir.**

Tədbirin təşkilatçıları Kənd Təsərrüfatı və Energetika nazirlikləri, həmçinin ADA-dır.

Forumun açılış mərasimində çıxış edən ADA-nın rektoru Hafiz Paşayev qonaqları salamlayıb, tədbirə verdiyi dəstəyə görə FAO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür edib. H.Paşayevin sözlərinə görə, müasir dünyada yaşıl enerjidən istifadə sahəsində böyük nailiyyətlərə əldə edilib, Azərbaycan da bu istiqamətdə addımlar atmaqdadır. Rektor bildirib ki, rəhbərlik etdiyi akademiyanın tələbə şəhərciyində binalar alternativ enerji ilə təchiz olunub. Yaxın vaxtlarda tikintisi başa çatacaq daha iki bina da analoji enerji ilə təchiz olunacaq.

**Kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, dünyada ərzaq məhsulları ilə təchizat sahəsində bir sıra çağırışlar formalaşıb. Bunlardan biri demoqrafik vəziyyətdir:** "FAO-nun son proqnozlarına görə, 2050-ci ildə dünya əhalisinin sayı 9,3 milyard nəfərə çatacaq. Bu isə o deməkdir ki, biz öz ərzaq təminatımızı təxminən 70 faiz artırmalıyıq. Digər çağırışlar olan qlobal iqlim dəyişikliyi, qlobal istiləşmə, quraqlıq faktorları kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını daha da çətinləşdirir".

**Azərbaycanda aqrar sahənin iqtisadiyyatın əsas prioritetlərindən biri olduğunu deyən nazir bu ilin 9 ayında bu sahədə 4,3 faiz artım qeydə alındığını vurğulayıb:** "Bu sahənin inkişafı istiqamətində dövlət tərəfindən böyük tədbirlər həyata keçirilir. Amma Azərbaycan da aqrar sahənin inkişafı qarşısında duran çağırışları nəzərə almalıdır. Azərbaycanın əkinəyararlı torpaqları, suvarma imkanları məhduddur, iqlimi monoton deyildir. Cənab prezident aqrar sahənin inkişafı sahəsində qarşımıza bir sıra vəzifələr qoyub. Bunlar mövcud resurslardan səmərəli istifadə etmək, məhsuldarlığı artırmaqdır".

İ.Kərimov bildirib ki, bu gün müasir innovasiyaların tətbiqi nəticəsində aqrar istehsala çəkilən xərclər 20-30 faiz azalır. İnnovasiyaların tətbiqi sayəsində 2020-ci ildə dünyada kənd təsərrüfatından əlavə 52 milyard dollar gəlir götürmək mümkündür.

**Türkiyənin kənd təsərrüfat naziri Bəkir Pakdəmirli bildirib ki, müasir dünyada ölkələr üçün kənd təsərrüfatı müdafiədən daha vacib sahəyə çevrilib:** "Hazırda dünya ərzaq təchizatı sahəsində ciddi problemlərlə üz-üzədir: əhali artımı, iqlim dəyişikliyi, səhralaşma və sair. Bundan əlavə, şəhərləşmə sürətlə artır. Bu gün dünya əhalisinin 55 faizi şəhərlərdə yaşayırsa, 20 ildən sonra bunun 70 faizə çatacağı gözlənilir. Hazırda dünyada 1 milyard insan ifrat yoxsulluq həddində yaşayır, 800 milyon insan aclıq keçirir, 1 trilyon dollar yanlış qidalanmaya sərf olunur. Belə gedərsə, yaxın gələcəkdə insanlar su, ərzaq üstündə müharibələr edəcəklər. Buna görə də innovasiyalardan bəhrələnməklə ərzaq istehsalını artan tələbata, çətinləşən şərtlərə uyğunlaşdırmaq lazımdır".

**B.Pakdəmirli onu da qeyd edib ki, kənd təsərrüfatında əsas məsələlərdən biri planlamadır:** "Cənab prezident İlham Əliyevlə görüşümüzdə o da vurğuladı ki, planlama sahəsində Azərbaycanda müəyyən çətinliklər var. Bu sahədə Türkiyə öz təcrübəsini Azərbaycanla bölüşməyə hazırdır". Nazir qardaş ölkənin alternativ və bərpa olunan enerji istehsalı sahəsində əldə etdiyi nailiyyətləri də xüsusi qeyd edib.

**Ölkə prezidentinin aqrar siyasət məsələləri üzrə köməkçisi Azər Əmiraslanov bildirib ki, dövlət başçısının tapşırığı ilə aqrar sektorda innovativ texnologiyaların tətbiqinə başlanılıb:** "Əsas məqsəd əhalinin təhlükəsiz və davamlı ərzaq təminatına nail olmaqdır. Kənd təsərrüfatı təbiət hadisələrindən ən çox asılı olan sahələrdən biridir. Bu sahəni inkişaf etdirərkən bu amili nəzərə almaq çox vacibdir".

**A.Əmiraslanov qeyd edib ki, son yarım əsrdə dünyada kənd təsərrüfatı çox ciddi texnoloji yeniləşmə prosesi keçib. Onun sözlərinə görə, hazırda aqrar sektor daha çox inkişaf etmiş ölkələrdə formalaşıb:** "Təsadüfi deyil ki, bu gün dünyada ərzaq məhsullarının əsas ixracatçıları qismində məhz inkişaf etmiş ölkələr çıxış edir. Ötən əsrin 60-70-ci illərində beynəlxalq leksikona "Yaşıl inqilab" anlayışı daxil oldu. Onun əsas komponentləri yeni bitki növlərinin yaradılması, aqrar sektorda mütərəqqi sistemlərdən istifadə, bu sahənin sənayeləşdirilməsi hesab edilir. Qeyd edilən istiqamətlər üzrə Azərbaycanda ciddi addımlar atılsa da, kənd təsərrüfatı ilə bağlı görəcəyimiz işlər hələ çoxdur".




Prezidentin köməkçisi həmçinin rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqinin vacibliyini vurğulayıb.

**Energetika naziri Pərviz Şahbazov çıxışında qeyd edib ki, Azərbaycanda istehsal olunan enerjinin 18 faizi alternativ və bərpa olunan enerji mənbələrindən(su elektrik stansiyaları da daxil olmaqla) əldə edilib:** "Enerji resursları dünyada qeyri-bərabər paylanıb. Bu resurslar vaxtaşırı siyasi proseslərin alətinə çevrilir. Son illərdə neftin qiymət dəyişikliyi ilə bağlı proseslərdə geosiyasi amillərin rolu da təsdiqləyir ki, təkcə enerjiyə çıxışı olmayan ölkələr deyil, neft ölkələri də alternativ həllər axtarmalıdır. Bu baxımdan, bərpa olunan enerji hər bir ölkənin enerji təhlükəsizliyini təmin edən universal həlldir. Karbohidrogenlərdən fərqli olaraq bərpa olunan enerjini hər bir ölkə əldə edə bilər. Proqnozlara görə, 2027-ci ilədək dünyada enerji sahəsinə qoyulan investisiyaların üçdə ikisi bərpa olunan enerjinin payına düşəcək".

**P.Şahbazovun sözlərinə görə, Azərbaycanın bərpa olunan enerji istehsalı sahəsində böyük potensialı var:** "Bərpa olunan enerji mənbələri sənayesini inkişaf etdirmək, bazarını yaratmaq, rəqabət qabiliyyətini artırmaq üçün beynəlxalq ekspertlərin dəstəyi ilə "Bərpa olunan enerji mənbələri haqqında" qanun layihəsi hazırlanır. Eyni zamanda Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birlikdə bərpa olunan enerjinin şəbəkəyə inteqrasiyası və şəbəkənin gücləndirilməsi layihəsinin icrasına başlanıb. Bərpa olunan enerji sahəsində özəl sektorun iştirakı üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində addımlar atılır. Bu sahədə ixtisaslaşmış şirkətlərlə məsləhətləşmələr aparılır. Asiya İnkişaf Bankının dəstəyi ilə Böyük Şor gölündə üzən günəş paneli uğurla həyata keçirilir".

Nazir onu da bildirib ki, Azərbaycanda Dünya Bankı ilə birlikdə enerji səmərəliliyi sahəsində milli fəaliyyət planının hazırlanması və pilot layihələrin həyata keçirilməsi üçün müzakirələr aparılır.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə kənd təsərrüfatında yüksək texnologiyaların tətbiqinin çox vacib amil olduğunu bildirib.

**Daha sonra forum müxtəlif mövzular üzrə müzakirələrlə davam etdirilib.**





**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# "Əfv sərəncamı Novruz bayramı ərəfəsində olacaq"

## Rəşad Məcid: "Yəqin ki, gələn aydan iclaslar başlayacaq"

## Səidə Qocamanlı: "Cəzalarının üçdə birini çəkən məhbuslarla bağlı son həftələr ərzində müvafiq komissiyalar toplanır"





**Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü yaxınlaşdıqca əfv sərəncamının olub-olmayacağı barədə müzakirələr gedir. Sərəncamın olmama ehtimalları daha yüksək görünür. Buna səbəb də Əfv Komissiyasının son aylarda demək olar ki, iclaslarının keçirilməməsidir. Bundan əlavə, son illərdəki əfv sərəncamlarının adətən Novruz bayramında imzalanması nəzərə alınaraq gözlər daha çox mart ayına dikilib.**

**Əfv Komissiyasının üzvü Rəşad Məcid** gedən müzakirələrlə bağlı "Yeni Müsavat"a bunları dedi: "Əfv Komissiyasının iclasları adətən ilin əvvəllərindən etibarən keçirilməyə başlayır. Yəqin ki, gələn aydan iclaslar başlayacaq. Əfv sərəncamı adətən son illərdə Novruz bayramında imzalanır. Mən komissiya üzvü olandan belə olub. Yəqin ki, əvvəlki illər kimi bu dəfə də əfv sərəncamı Novruz bayramı ərəfəsində olacaq".

**İnsan Hüquqları üzrə Birgə İşçi Qrupunun üzvü Səidə Qocamanlı da əfv sərəncamının gələn ilin martında veriləcəyini düşünür:** "Əfv Komissiyası daim fəaliyyət göstərir. Buna söz ola bilməz. Əfv sərəncamının Yeni il və ya Dünya Azərbaycanlılarının Həmrəyliyi Günündə imzalanacağını gözləmək doğru deyil. Hər halda, bizdə olan məlumata görə, əfv olmayacaq. Olsa-olsa Novruz bayramında olacaq. Bizim siyahılar hazırdır. Biz siyasi məhbuslarla daim maraqlanırıq. Xəstə olanların, cəzalarının böyük hissəsini çəkənlərin adlarını Əfv Komissiyasına təqdim edirik. Əfv sərəncamı imzalamaq birbaşa ölkə prezidentinin səlahiyyətindədir. Bunu qətiyyən unutmaq olmaz. Olub ki, adi vaxtlarda da bu sərəncam verilib. Onu da deyim ki, cəzalarının üçdə birini çəkən məhbuslarla bağlı son həftələr ərzində müvafiq komissiyalar toplanır. Məqsədəuyğun şəkildə, yəni onların həbsxanadakı davranışları və digər hallar nəzərə alınaraq, azadlığa buraxılan məhbuslar olur. Mən burada sırf siyasi məhbusları nəzərdə tutmuram. Biz hər zaman deyirik ki, həbs edilənlər arasında narkotik satışı ilə məşğul olan və narkotik istifadəçisi olan şəxslər var. İstifadəçi olanları həbs etmək lazım deyil, onları müalicəyə göndərmək lazımdır. Bu da nəzərə alınıb. Onların çox vaxt həbsxanalardan çıxarılaraq müalicəyə göndərilirlər. Düşünürəm ki, bu hüquq müdafiəçilərinin uğurla yanaşması idi və bu eşidilən yanaşma olduğu üçün eşitdilər".

Xatırladaq ki, sonuncu əfv sərəncamı bu ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı imzalanıb. Həmin sərəncam 634 nəfərə şamil olunub.

**❑ Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018



# Paşinyanı taxtda, Roberti zindanda görəcəkmişik

Xalid KAZIMLI

**Bir il öncə bu günlərdə proqnozlaşdırmaq mümkün deyildi ki, 2018-ci ilin dekabrında Ermənistanda hakimiyyətdə Sərkisyan-Köçəryan cütlüyü yox, tamam başqa bir adam olacaq.**

O "başqa adam"ın adını nəinki regionda və dünyada, heç Ermənistanın özündə də çox adam bilmirdi.

Onu yalnız doğulduğu mahalda və İrəvanda, jurnalistlər və siyasətçilər sferasında tanıyırdılar. Keçmişdə jurnalist, ötən ilə qədər isə deputat olan bu hay-küylü, demaqoq adam - Nikol Paşinyan perspektiv vəd etmirdi.

İndi o, ilin birinci yarısında zor-xoş yiyələndiyi hakimiyyəti bir az möhkəmlədib və xalqın 70 faizinin səsini alaraq legitimləşdirib.

Söz yox, Paşinyanın seçki zəfərində qəsb olunmuş hakimiyyətin yaratdığı üstünlükdən, administrativ resurslardan maksimum istifadə olunub, amma bu resursları səfərbər etmək və seçki qələbəsinə çevirməyin özü də ağıl və fərasət tələb edən işdir.

Adam əlində milyardlar fırladan və xarici dəstəyi qüdrətli prezidentlər səviyyəsində olan Sərkisyan-Köçəryan tandemini diz çökdürdü və hələ bu süqutun mabədi də olacaq. Hazırda Köçəryan həbsdədir, onun digər əlaltıları da həbs və müflis ediləcək. Sıra Sərkisyana və adamlarına da çata bilər.

Paşinyan bu işi (köhnə hakimiyyətin başbilənlərini və fəallarını darmadağın etməyi) uğurla davam etdirsə, başa çatdırsa, hakimiyyəti uzunömürlü olacaq, yarıda dayandırsa, bir müddətdən sonra onun özünü də yarıda dayandıracaqlar.

Prosesin buraya qədər davam edən hissəsi göstərir ki, ölkə xaricində nə qədər ciddiyə alınmasa da, xüsusilə MDB məkanında onunla, sözün əsl mənasında, üzdəniraq kimi davranılsa da, Paşinyan ən azı Qafqaz ölkələrindəki qısaömürlü hakimiyyətlərin təcrübəsini bilir.

Gürcüstanda Zviad Qamsaxurdiya, Azərbaycanda isə Əbülfəz Elçibəyin hakimiyyətlərinin bir il çəkməsi, bütün digər səbəblərlə yanaşı, əsasən "köhnə qvardiya"nın zərərsizləşdirilməməsi üzündən baş vermişdi.

Onlara qarşı lüstrasiya həyata keçirilmədi və bu plutokratlar dəstəsi malik olduqları vəsaitləri, eləcə də bir-birləri ilə əlaqələri qoruyaraq, ölkədən çıxmayaraq kölgəyə çəkildilər, qısa müddətdən sonra onları heç nəyin təhdid etmədiyini görərək, topparlandılar, hərəkətə keçərək yenidən hakimiyyətə qayıtmağa çalışdılar və bacardılar.

Hərçənd onların heç də hamısı yeni hakimiyyətdə təmsil oluna bilmədi. Konkret olaraq Azərbaycanda Elçibəy hakimiyyətinin devrilməsində fəallıq göstərən mütəllibovçuların bir çoxu kənarda qaldı, surətçilərin hamısı isə ilyarımdan sonra ya həbsə alındı, ya da didərgin düşdülər.

Hazırda Sərkisyan-Köçəryan tandeminin rəhbərlik etdiyi, nüvəsi Qarabağ ermənilərindən olan klan aşınma mərhələsindədir. Ya onlar tamamilə darmadağın ediləcəklər, ya da bir müddətdən sonra toparlanıb revanşa qalxacaqlar.

Bundan ötrü onların hər şeyi var. Xarici dəstəkləri də hələlik sıfırlanmayıb.

Ötən il bu vaxtlar nə qədər fantastik görünsə də, biz Köçəryanı bu il həbsdə gördük. Onun və Sərkisyanın hakimiyyətdə olduğu dönəmlərdə bunu təsəvvür etmək çətin, ancaq mümkün idi.

Bundan əvvəl Serbiyanın Miloşeviç və başqa hərbi canilləri günü gəldiyi zaman həbs edilmiş, Haaqa tribunalına verilmişdilər.

Əlbəttə, prezident və baş nazir, eləcə də müdafiə naziri olduqları zaman heç kəs onları həbsə almayacaq, barələrində cinayət işi açmayacaqdı, amma adamlar vəzifələrini itirəndən sonra iş dəyişdi və bu şəxslər adi adamlara çevrilincə bütün immunitetlərindən məhrum oldular və hərbi cani olduqları yada düşdü.

Köçəryan da, Sərkisyan da hərbi canidirlər, Qarabağda mülki əhaliyə qarşı törədilmiş amansız və kütləvi cinayətlərin altında onların imzası var.

Azərbaycanın hüquq-mühafizə orqanları vaxtında bütün dəlil-sübutları toplayıb onların mühakimə edilməsi üçün Haaqa tribunalına müraciət etməliydi. Bu barədə jurnalistlər, o cümlədən qəzetimizin müəllifləri hələ 10-15 il öncədən yazırdılar.

Əgər elə bir iş baş versəydi, bu gün Haaqa tribunalı Köçəryanın və Sərkisyanın ekstradisiyasını tələb edə bilərdi. Paşinyan isə nə qədər erməni millətçisi olsa da, güman ki, onlardan birdəfəlik yaxa qurtarmaq üçün tribunalın tələbini yerinə yetirərdi.

Bəlkə hələ də gec deyil...

# Rusiya niyə Ermənistanın "nazı ilə oynayır" - səbəblər

## Elşən Mustafayev: "Səssizliyin arxasında daha böyük işlər durur"

## Əhəd Məmmədli: "Paşinyan Rusiya ilə müvəqqəti də olsa anlaşıb"

**Rusiya son 15 ildə Gürcüstan və Ukrayna uğrunda Qərblə açıq savaş aparır. 2003-cü ildə Gürcüstandakı "Qızılgül" və Ukraynadakı "Narıncı inqilab"dan sonra savaş artan xətlə bu günlərə qədər gəlib çatdı. Xüsusilə Rusiyanın 2008-ci ildə Gürcüstana və 2014-cü ildə Ukrayna ərazilərinə təcavüzündən sonra Rusiya-Amerika qarşıdurması sonu görünməyən məcraya yönəldi.**





Bu iki ölkədən fərqli olaraq Rusiyanın Ermənistanla bağlı bu ilin aprelindən etibarən sərgilədiyi mövqe ciddi təəccüb doğurur. Sanki Kreml əlini rəsmi İrəvandan üzüb. Düşmən ölkə inqilabdan sonra sürətlə Qərbə meyllənir. Rusiya isə bunun qarşısında hər kəsin gözlədiyi mövqeyi sərgiləmir. Dekabrın 9-da Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərinin rusiyameylli qüvvələrin rüsvayçı məğlubiyyəti ilə başa çatması ciddi mətləblərdən xəbər verdi. Bütün bunlarla bağlı ekspertlərin fərqli fikirləri var.

**Beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev hesab etmir ki, Rusiya Ermənistandakı proseslərə biganədir:** "Paşinyan tərəfdarları ilə etiraz aksiyalarına başladığı ilk gündən bütün Rusiya KİV-ləri yazılarında və verilişlərində olaylardan narahat olduqlarını, hadisələrin Ermənistanı Rusiyadan uzaqlaşmaq istiqamətində olduğunu bildirirdilər. Rəsmi səviyyədə münasibət bildirilməyibsə, bu o anlama gəlməməlidir ki, Moskva Ermənistanda olan maraqlarından imtina etmək istəyir. Düşünürəm ki, Rusiyanın Ermənistanla bağlı bir neçə variantda planları mövcuddur və situasiyadan asılı olaraq onlardan istifadə edəcək. Bu seçkilərdə Paşinyana müxalifətdə olanların uduzmasına baxmayaraq, gücləri qabarıq səviyyədə ortada olsaydı, həmin narazıların etirazlarından istifadə olunaraq siyasi gərginlik yaradılacaqdı. Amma göründüyü kimi, Paşinyanın partiyası parlamentə mütləq səs çoxluğu ilə nəzarəti ələ keçirdi. Sərkisyana, Köçəryana yaxın bütün partiyalar, Daşnaksütyun belə parlamentə düşə bilmədilər. Belə bir vəziyyətdə Rusiya hansı müdaxiləni edə bilərdi? Uzun illərdir ki, hakimiyyəti zəbt etmiş "Qarabağ klanı"na olan nifrət onun əleyhinə olan qüvvələri bu gün hakimiyyətə gətirib. Düşünürəm ki, hələ bir müddət xalq eyforiyada olacaq. Ancaq bu hisslər qısa müddətdə get-gedə azalandan sonra insanların Paşinyandan bütün sahələrdə gözlədiklərinin həyata keçirilməsi tələbləri ortada qalacaq. Hesab edirəm ki, o zaman Rusiyanın digər variantlarının işlədiyi görünəcək. Əminəm ki, qısa müddət sonra Paşinyanın komandasında müxtəlif səbəblər üzündən parçalanma baş verəcək. Buna səbəb kimi fikir ayrılıqları da ola bilər, "inqilab öz balalarını yeyir" kimi məşhur səbəblər də. Məhz o zaman görəcəyik ki, Rusiya Ermənistanda indiyə qədər baş verənlərə heç də seyrçi olmayıb. Rusiyanın Cənubi Qafqazda hərbi cəhətdən mövcud olduğu yeganə ölkə Ermənistandır. İqtisadi sahədə əsas istiqamətlər üzrə Ermənistanın asılılığı da ortadadır . Eyni zamanda İrəvanın istənilən vaxt rahatlıqla cəzalandırılması imkanları da genişdir. Belə görünür ki, Rusiya baş verən hadisələrə görə rahatdır və hər şey onların planları üzrə gedir. Vaxtilə Ukraynada Yuşşenko "Maydan" inqilabi ilə hakimiyyətə gələndə, Saakaşvili Gürcüstanda "Qızılgül inqilabı" edəndə Rusiyanın reaksiyaları bu gün olandan daha zəif idi. Halbuki hər iki dövləti itirmək təhlükəsi Ermənistanla müqayisədə daha çox idi. Amma sonrakı etaplarda məlum oldu ki, onun səssizliyinin arxasında daha böyük işlər dururdu. Odur ki, bir az gözləməyə ehtiyac var. Paşinyan üçün hər mənada ağır günlər bundan sonra başlayacaq. Ona qarşı yeni müxalifət də formalaşacaq, mübarizə üsulları dəyişəcək. Amma bir məsələ var ki, "Qarabağ klanı" artıq işlənmiş material kimi bir kənara atılacaq və onlardan istifadə olunmayacaq".

**Politoloq Əhəd Məmmədli bildirdi ki, Rusiya böyük ölçüdə Ukrayna və Gürcüstanı itirib:** "Düzdür, Rusiya təhlükəsi hələ də qalır. Rusiya təhlükəsi bütün qonşu ölkələr üçün daim olacaq. Ermənistana gəlincə, bu ölkə yenə də Rusiyanın yanındadır. Elə olmasaydı, Rusiya bu ölkə uğrunda necə və nə cür lazımdırsa vuruşardı. Rusiya Ermənistan uğrunda vuruşur, sadəcə, bunu aktiv müstəvidə etmir. Çünki inqilabla hakimiyyət dəyişikliyinə rəğmən rus ordusu, hərbi bazası yenə də Ermənistandadır. Ermənistan yenə öz gələcəyini Avrasiya İttifaqı, KTMT-də görür. Ermənistan rus qazından asılı vəziyyətdədir. Bu ölkədə hakimiyyət dəyişikliyi qətiyyən ölkənin Rusiyadan qopması anlamına gəlmir. Rusiya siyasi baxımdan ABŞ tərəfindən, iqtisadi baxımdan Çin tərəfindən dəmir əhatəyə alınıb. Rusların bundan xəbəri yoxdur. Lakin vaxtilə SSRİ-nin kiçik tərəfdaşı hesab olunan Çin Rusiyanın böyük tərəfdaşına çevrilib. Bu gedişatla Rusiya ABŞ və Çin arasında nüfuz dairəsinə bölünəcək. Ermənistan Avropa Şurasının kasıb ölkələrindəndir. Təbii ki, hamı kimi ermənilər də daha yaxşı yaşamaq istəyirlər. Ağlı başında olan adam da yaxşı anlayır ki, Rusiya ilə birlikdə olan ölkə inkişaf baxımından çox uzağa gedə bilməz. Sərhədlər açıqdır. Erməni gəncliyi gedir, dünyanı gəzir, vətəninə qayıdır və görür ki, əvvəlki kimi yaşamaq olmaz. Və bu bəlanın əsl səbəbkarı Rusiyadır. Ermənistanda Rusiyanın hələ də sakit qalmağının səbəblərinə gəldikdə isə görünür, Paşinyan Rusiya ilə müvəqqəti də olsa anlaşıb. Moskva izləmək mövqeyini davam etdirir. Ehtimal edirəm ki, Paşinyan baş nazir seçiləcəyi təqdirdə daha uzunmüddətli süreçdə Moskvaya istədiyi vədləri verib. Ona görə də Kreml Ermənistanda olan hadisələrə aktiv, amma seyriçi mövqedə qalır. Düşünürəm ki, Paşinyan Sərkisyanın siyasətini davam etdirəcək, lakin çalışacaq ki, Rusiyadan daha müstəqil siyasət sürsün. Bu onda nə qədər alınacaq, bunu zaman göstərəcək. Ermənistanda Amerika durmadan Rusiyanın üstünə gəlir. Dünyada Amerikanın ən böyük səfirliklərinin biri də Ermənistandadır. Azərbaycan Ermənistanda baş verəcək hər gedişata hazır olmalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# "Lider kimi önə çıxmaq məqsədim yoxdur"

## İsgəndər Həmidov: ""Müxalifət zirvəsi"nin gözlənilən parlament seçkiləri ilə heç bir əlaqəsi yoxdur"

**Sabiq daxili işlər naziri, AMDP sədri İsgəndər Həmidov dekabrın 25-də saat 12.00-da VHP-nin qərargahında "Müxalifət zirvəsi" təşkil edəcək. Görüşün mövzusu "Azərbaycanda ictimai-siyasi vəziyyət və müxalifətin vəzifələri"dir.**

Zirvə görüşünə İ.Həmidovun özü də daxil olmaqla, ölkənin ən tanınmış 36 müxalif siyasətçisinə dəvət göndərilib. Həmin siyasətçilər bunlardır:

İsgəndər Həmidov, Pənah Hüseyn, Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, İqbal Ağazadə, Sərdar Cəlaloğlu, Əli Əliyev, Tural Abbaslı, İlqar Məmmədov, Qubad İbadoğlu, Mirmahmud Mirəlioğlu, Əhməd Oruc, Fuad Əliyev, Elşad Musayev, Nəsir Ağayev, Etibar Məmmədov, Arzuxan Əlizadə, Lalə Şövkət Hacıyeva, İlham Əliyev, Əvəz Temirxan, Nemət Pənahlı, Rahim Qazıyev, Hacibaba Əzimov, İlyas İsmayılov, Sülhəddin Əkbər, Sabir Rüstəmxanlı, Rafiq Turabxanoğlu, Vaqif Hacıbəyli, Qulamhüseyn Əlibəyli, Ağasif Şakiroğlu, Mətləb Mütəllimli, Eldar Namazov, Valeh İbadov və İxtiyar Şirin.

Toplantı təyin olunduğu andan etibarən müxtəlif müzakirələr açılıb. Dəvət edilən siyasətçilərin dəvətə necə münasibət sərgiləyəcəkləri suallar doğurur. Xüsusilə AXCP sədri Əli Kərimlinin son bir həftədə müxalifət daxilində birlik təşəbbüsü ilə çıxış etməsinin, həttа bəzi tanınmış siyasətçilərlə gizli və ya açıq şəkildə görüşünün ardından "Müxalifət zirvə"sinin təyin edilməsi fərqli situasiya ortaya çıxarıb.



İ.Həmidovun nə üçün belə bir təşəbbüslə çıxış etməsi ilə bağlı fikirlərini aldıq.

**Sabiq nazir öncəliklə günlər öncə sağlamlığı ilə əlaqədar xəstəxanaya yerləşdirilərkən yanında olan hər kəsə təşəkkür etdi:** "Xəstəliyimlə əlaqədar kim xəbər tutub narahatçılıq keçirdisə, yanımda oldusa, hər birinə sizin qəzet vasitəsilə təşəkkürümü bildirirəm. Müxalifətin belə bir toplantısının təyin olunmasına gəlincə, bu məsələ bir neçə il öncədən düşünülürdü. Haradasa 3-4 il olar. Müxalifət düşərgəsinə baxdıqda belə bir mənzərə yaranır ki, sanki ustalıqla bir əl bu düşərgə daxilində kin-küdurət, nifrət yaradıb. Qüvvələr bir-birinə qarşı qoyulub. Unutmayaq ki, bu düşərgədə təmsil olunanların hamısı od-alovdan keçiblər. Hər birinin də kifayət qədər siyasi təcrübələri var. Qonşu ölkələrdə gedən proseslər göstərir ki, cəmiyyət demokratiyaya doğru irəliləyiş etməlidir. Demokratik islahatların qarşısı alınmazdır. Gec-tez bu olacaq. Cəmiyyətimizin demokratiyaya doğru getməsi üçün belə bir toplantının olması çox vacibdir. Burada kiçik və ya böyük düşüncəsi olmamalıdır. Bütün ambisiyalar kənara qoyulmalıdır. Bir daha inam, məhəbbət bəsləyib irəli getməliyik. Bu yolda ciddi nəticələr qazanmaq olar. Səhəri gün bir hakimiyyətyönlü siyasətçi, yaxud partiya rəhbəri gəlib öz fikrini demək istəsə, dinləməyə hazırıq. Bir-birimizi öyrətməli, dinləməliyik".

**İsgəndər bəy nə üçün belə bir toplantının keçirilməsi təşəbbüsü ilə çıxış etdiyinə də aydınlıq gətirdi:** "Bu toplantı ilə liderlik funksiyası yerinə yetirmək fikrindən çox-çox uzağam. Belə bir niyyətim də yoxdur. Həbsxanadan çıxandan sonra fəaliyyətim zamanı dostumuz Əli bəy, İsa bəy və Arif bəyin yanında olduğum zamanlar çox olub. Mənim üçün lider kimi önə çıxmaq məqsədi yoxdur. Öncəliklə xalqım mənim üçün öndədir, xalqım lider olmalıdır. İstənilən xalq öz içərisindən lider çıxara bilər. Bu təşəbbüsüm türmədən çıxdıqdan sonra son 15 ildə hər zaman məndə olub. İndiyə qədər bir sıra belə toplantılar keçirilib, birliklər olub, amma onların əksəriyyəti cəmiyyəti tam əhatə edə bilməyib. Seçkilər öncəsi yaranan birliklərin heç biri özünü doğrultmayıb. Əgər demokratik mühitə, islahatlara nail olmasaq, heç nə əldə edə bilməyəcəyik. Biz bir olaraq bunlara nail olmalıyıq. Lider funksiyası oynamaq fikrim yoxdur və belə bir fikrə də düşmərəm. 71 yaşım var. Allahın mənə nə qədər ömür verdiyi məlum deyil. Tək istəyim odur ki, millətimin güzəranı hər zaman yaxşı olsun. Ərazi bütövlüyümüzün bərpası mütləqdir".

**AMDP sədri dəvətinə necə reaksiya göstəriləcəyinə də toxundu:** "Toplantıya qatılıb-qatılmamaq hər kəsin öz işidir. Mən bilirəm ki, qatılanlar da, qatılmayanlar da Azərbaycanı sevirlər. Toplantı barədə dünyanın əksər yerlərinə məlumat veriləcək. Hər kəs öz fikrini gəlib deyə bilər. Hamı dinlənilməli, birlikdə sənəd hazırlanmalıdır. Narazı fikirlərə də hörmət edilməlidir. Əgər kimsə birlik təşəbbüsü ilə çıxış etsə, inanın ki, hamımız gedib ora qoşularıq. Təki birlik olsun. Amma vahid birlik olmalıdır. 3, 4 və ya 5 birlik ola bilməz. Bu ancaq siyasi oyunbazlıqdır. Belə oyunbazlıqlara getməyə artıq son qoyulmalıdır. "Müxalifət zirvəsi"nin gözlənilən parlament seçkiləri ilə heç bir əlaqəsi yoxdur. Əgər demokratik mühit olmasa, demokratik islahatlara gedilməsə, parlament seçkilərində nələrisə qazanmağa ümid etmək olmaz. Bu baxımdan toplantının seçkilərlə əlaqəli olmadığını hər kəs bilsin. Belə düşüncələr bizi parçalayır, birləşdirmir. Namizəd vermək, yaxud müəyyənləşdirmək halları indiyə qədər müxalifəti daha çox parçalayıb. Zirvə görüşündə müxtəlif partiyaların rəhbərləri, tanınmış siyasətçilər iştirak edəcəklər. İndidən deyim ki, orada toplantının parlament seçkiləri ilə heç bir əlaqəsinin olmadığını bəyan edəcəm".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Partiyalarda erkən parlament seçkiləri gözləntisi

## Növbədənkənar parlament seçkiləri müxalifətə revanş fürsəti verəcək?

**Növbəti ilin aprel ayında növbədənkənar parlament seçkilərinin keçiriləcəyi barədə xəbərlər yayılır. İddialara görə, növbədənkənar prezident seçkiləri kimi bu seçkilər də seçki kampaniyasına çox az qalmış təyin edilə bilər. Hökumətdə bu seçkini də sabitlik şəraitində reallaşdırmaq planının götür-qoy edildiyi söylənilir.**

Bəs növbədənkənar parlament seçkiləri müxalifət düşərgəsini aktivləşdirə və müxalifətə revanş üçün fürsət verə bilərmi?

**VİP sədri Əli Əliyev** "Yeni Müsavat"a bildirdi ki, növbədənkənar parlament seçkiləri ilə bağlı məsələni hələ 3-4 ay əvvəl mətbuata açıqlamalarında proqnoz vermişdi. "Bunu görmək üçün dərin məntiqə malik olmaq zəruri deyil. Daxili proseslərin analizi göstərir ki, parlamentin tərkibi təzələnməli, yeni şərtlərə uyğunlaşdırılmalıdır. İndi isə xarici amillər də ortaya çıxıb. Ermənistanda keçirilən növbədənkənar parlament seçkiləri də səbəblərdən biri kimi bizdə erkən seçkiləri şərtləndirir. Müxalifət düşərgəsinin fəallaşmasını da bununla əlaqələndirmək mümkündür. Əslində qarşıdakı parlament seçkiləri demokratik açılım, cəmiyyətin konsensusu üçün vacibdir. Bunu hər tərəf düzgün dəyərləndirməlidir.

Mən müxalifətin revanşını görmürəm, obyektiv olmaq lazımdır. Əgər müxalifət yeni parlamentdə ciddi və təsirli fraksiya əldə edə bilsə, bunu uğur saymaq olar. İndiki mərhələdə bu böyük nailiyyət olmuş olardı" deyə, Ə.Əliyev bildirib.

**Yeni AXCP-nin sədri Razi Nurullayev isə bildirdi ki, növbədənkənar parlament seçkilərinin yazda keçiriləcəyi barədə xəbərlərin həqiqət olduğunu güman etmək olar:** "Əslində seçkilərin bu payız keçiriləcəyini də düşünürdüm. Hansı zamanda keçirilməsindən asılı olmayaraq, növbədənkənar parlament seçkilərinin keçirilməsi baş tutacaq. Bu həm də ona görə lazımdır ki, parlament seçkiləri 2025-ci il prezident seçkiləri ilə üst-üstə düşməsin. Gələn ilin apreli olmasın-payızı-oktyabr ayı olsun-seçkilərin keçirilməsi ciddi ehtimaldır.

Qaldı ki, müxalifətin fəallaşmasına, bu təbii ki, baş verəcək. Siyasətçilər, siyasi partiya və təşkilatlar seçkilər zamanı hər zaman fəallıq göstərirlər. Sadəcə olaraq, seçkilərin irəli və ya geri çəkilməsinin ciddi önəmi yoxdur və heç zaman da olmayıb. Çünki desəm ki, var, sual oluna bilər ki, zamanında keçirilən və növbədənkənar keçirilən seçkilər arasında fərq nə olub? Heç nə. Müxalifətarası didişmələr, günahlandırmalar və bir-birinin üzərinə çamur atmalar. Bütün bunları dayandırmaq və birləşmək lazımdır".

**R.Nurullayev qeyd etdi ki, revanş götürmək məfhumu bizim siyasi cəmiyyətimiz üçün keçərli deyil:** "Siyasi revanş tam demokratik oturuşmuş ölkələrdə qanunlar çərçivəsində və seçicilərin iradəsi ilə baş verir. Bizim cəmiyyətdə revanş sözün həqiqi mənasında başa düşülür. Müxalifətin hər iki mənada revanş götürmək imkanları məhduddur. Azərbaycana normal siyasət lazımdır ki, bütün siyasi partiyalar və siyasətçilər normal şəraitdə güclərini görə bilsinlər və addımlarını ona görə atsınlar. Məhz belə olarsa, siyasi ələnmə prosesi dərinləşər və cəmiyyət üçün də çox faydalı olar. Öncə bizə siyasi mədəniyyət ənənəsini formalaşdırmaq lazımdır".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



## "Azərbaycanda siyasi fəaliyyətinə görə heç kim təqib olunmur" - Bahar Muradova

**Azərbaycanda siyasi fəaliyyətinə görə heç kim təqib olunmur.**

Bunu Milli Məclis sədrinin müavini Bahar Muradova bəzi hüquq müdafiəçilərinin Azərbaycanda 150-yə yaxın siyasi məhbusun olması barədə səsləndirdiyi iddialara münasibət bildirərkən deyib.

Onun sözlərinə görə, siyasi məhbusların sayı ilə bağlı hüquq müdafiəçiləri ziddiyyətli rəqəmlər səsləndirirlər: "Mən özünü hüquq müdafiəçisi adlandıran ayrı-ayrı fərdlərin irəli sürdüyü rəqəmlərə izah vermək niyyətində deyiləm. Birmənalı olaraq deyə bilərəm ki, Azərbaycanda siyasi fəaliyyətinə görə təqib olunan şəxs yoxdur. Siyasi məhbus adlandırılan şəxslər bu və ya digər partiyaya mənsubluğunu qabardaraq bu adın onların üzərinə qoyulmasına çalışırlar. Onların Cinayət Məcəlləsi və yaxud da İnzibati Məcəllənin bu və ya digər müddəasını pozması faktları var. Ona görə də birmənalı şəkildə Azərbaycanda şəxslərin siyasi baxışlarına görə təqib olunmaması qənaətindəyəm".

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018

Xəbər verdiyimiz kimi, hüquq müdafiəçiləri Novella Cəfəroğlu və Səidə Qocamanlının ötən həftə həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanovla görüşlərinə icazə verilməyib. Sabiq nazirin saxlanıldığı 13 saylı cəzaçəkmə müəssisəsinə gedən hüquq müdafiəçilərinin görüşünə müəssisə rəhbərliyinin icazə vermədiyi ilkin olaraq bildirilirdi.

# Hüquq müdafiəçiləri Əli İnsanovla görüşməyə ümid edir

## Novella Cəfəroğlu: "Görüşümüzə icazə vermədikdən sonra dedilər ki..."





**Ə.İnsanovun sağlıq durumunun yerində olmadığı üçün görüşə manea yaradıldığı barədə versiyalar meydana çıxıb. Bununla bağlı N.Cəfəroğlunun fikirlərini aldıq. O, deyilənləri təkzib etdi:** "Bizim görüşümüzə icazə vermədikdən sonra dedilər ki, anlaşılmazlıq olub. Biz də dərinə getmədik. Görüşməyinə mütləq görüşəcəyik. Biz hər zaman siyasi məhbuslarla görüşlər təyin edir, bunu da keçirirdik. Onların ümumi durumları ilə maraqlanmaq bizim işimizdir. Əli İnsanovun səhhətinin normal olmadığı üçün görüş alınmadığı yönündə səslənən fikirlər düzgün deyil. Onun vəziyyəti normaldır. Vəkili ilə daim əlaqə saxlayırıq. İnsanovla bağlı hələ ki hər şey normaldır. Mən ölkədə olmasam da, bu ayın sonuna qədər hüquq müdafiəçiləri Əli İnsanovla görüşəcəklər".

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin məsələ ilə bağlı mövqeyini öyrənməyə çalışsaq da, mümkün olmadı. Əli İnsanovun vəkili ilə də əlaqə cəhdlərimiz alınmadı.

Xatırladaq ki, Ə.İnsanov 2005-ci il oktyabrın 19-da həbs olunub. Dövlət çevrilişinə cəhd ittihamı ilə həbs olunan İnsanova qarşı sonradan iqtisadi sahədə cinayətkarlıqla əlaqəli ittiham irəli sürülüb. 2007-ci ilin aprel ayında məhkəmə Əli İnsanovun əmlakı müsadirə olunmaqla və 3 il ərzində dövlət vəzifəsi tutması qadağan olunmaqla, 11 il müddətinə azadlıqdan məhrum olunması barədə qərar çıxarıb. 2016-cı il avqustun 24-də, yəni azadlığa çıxmasına iki ay qalmış Qaradağ Rayon Prokurorluğu tərəfindən Əli İnsanova Cinayət Məcəlləsinin 315.2 (hakimiyyət nümayəndəsinə zor tətbiq etmə) , 234.1 (satış məqsədi olmadan qanunsuz olaraq narkotik vasitələri şəxsi istehlak miqdarından artıq miqdarda əldə etmə ) və 317-2.1-ci (cəzaçəkmə müessisələrində qadağan olunmuş əşyaların hazırlanması, saxlanılması və istifadəsi) maddələri ilə yeni ittihamlar elan edilib. Qaradağ Rayon Məhkəməsi 2016-cı il oktyabrın 11-də, yəni köhnə cəzasının bitiminə bir həftə qalmış sabiq nazir barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçib, sonradan bu müddət bir neçə dəfə uzadılıb. 2017-ci il aprelin 26-da hakim Rəşad Mustafayevin sədrliyi ilə Qaradağ Rayon Məhkəməsində bu ittihamlar üzrə proses yekunlaşıb. Ə.İnsanov növbəti dəfə 7 il 5 gün müddətinə azadlıqdan məhrum edilib. Beləliklə, 2005-ci ildə həbsə alınmış sabiq nazirin həbsi 2023-cü ilədək uzadılıb. Sabiq nazir ittihamları qəbul etmir, bunu siyasi sifariş sayır.

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifət Bakıda "sarı jilet" geyinmək fikrində deyil

## Partiyalar keçmiş təcrübədən peşmandırlar

**Fransada bir neçə həftədir hakimiyyətə qarşı "sarı jiletlər"in mitinqləri keçirilir. Etirazçılara qarşı hökumət qüvvələri həddən artıq güc tətbiq etsələr də, insanları küçələrdən yığmaq mümkün olmayıb. Nəticədə prezident Emanuel Makron verdiyi qərarlardan geri çəkilməyə məcbur oldu.**

Təcrübə göstərir ki, Azərbaycanda müxalifət zaman-zaman yaxın-uzaq xaricdə baş verən bu cür "rəngli" hərəkətlənmələrdən, inqilablardan həvəslənərək həmin prosesləri burada da təkrarlamağa cəhdlər ediblər. Məsələn, 2004-cü ildə Ukraynada "narıncı inqilab"dan sonra Azərbaycan müxalifəti narıncı rəngdə bayraqlar, geyimlərlə meydana çıxmışdı.

İndi də müxalifət Fransada "sarı jiletlər"dən ilhamlana və sarı jilet geyinib meydana çıxa bilərmi? Azərbaycan müxalifətinin Fransa kimi ölkədə aksiya keçirənlərə güc tətbiq edilməsinə münasibəti necədir?



**AĞ Partiyanın sədri Tural Abbaslı bildirdi ki, Fransada insanlar prezident Makronun son qərarlarına etiraz olaraq aksiyalar keçirir, lakin bunları dinc etiraz aksiyaları adlandırmaq da uyğun olmaz. Çünki artıq 3-cü həftədir ki, etirazçılar paytaxt Parisi demək olar ki, yandırıb-yıxır. Hətta bir çox dükanlar və bankomatlar qarət olunur:** "Odur ki, biz bu etirazlara birmənalı yanaşmanın tərəfdarı deyilik. Biz dağıdıcılıqla müşayiət olunan hər hansı prosesi təqdir etmirik və təkrar etmək də fikrində deyilik. Zamanında bizlər Azərbaycan müxalifəti olaraq "narıncı inqilabların" eynisini burada da təkrarlamağa çalışmışdıq. Lakin həmin dönəmlərdə bir çox obyektiv və subyektiv səbəblərdən bizdə bu etirazlar uğurla nəticələnmədi. Burada həmin dönəmdəki müxalifət liderlərinin səriştəsizliklərini, dünya birliyinin Ukrayna və Gürcüstandan fərqli olaraq bizə səmimi dəstək verməməsini, həmçinin belə inqilabların Azərbaycan cəmiyyəti tərəfindən tam qəbul olunmamasını da səbəb kimi göstərmək olar. Digər partiyaları deyə bilmərəm, ancaq AĞ Partiya olaraq biz artıq hansısa hərəkat və inqilabların Azərbaycana süni şəkildə ixrac olunmasının tərəfdarı deyilik. Çünki xalqımıza yad olan və cəmiyyət tərəfindən qəbullanmayan metodlarla uğur əldə etmək olmur. Həmçinin bu gün Fransa, Belçika, Hollandiyada olan etirazların və zamanında Ukrayna, Gürcüstan, ən son Türkiyədə "Gəzi olaylarının" arxasında xalqlardan daha çox beynəlxalq maraqlı güclərin durduğunu biləcək qədər də təcrübəmiz var. Bu etirazlara fikir versəniz görərsiniz etirazların simvolları, metodları, taktikaları tam eynidir. Belə hərəkatlar adətən Amerikanın hansısa dövlətlərə təzyiq etmək üçün Soros Fondu kimi qurumların əli ilə törətdikləri fəaliyyətlərdir. Bizsə AĞ Partiya olaraq özümüzü milli qüvvə hesab edirik, biz milli müxalifətçiliyin tərəfdarıyıq. Millilik isə bizim üçün iqtidarı dəyişmək üçün kənar qüvvələrlə əməkdaşlıq etmək demək deyildir".

**T.Abbaslı qeyd etdi ki, Fransadakı aksiyaların dağıdılması zamanı təbii ki, qeyri-adekvat polis gücündən istifadə pislənməlidir:** "Polisin və güc strukturlarının fəaliyyəti aksiyaçıların fəaliyyətinə adekvat olmalıdır. Təbii ki, polisdən qarətçi və təxribatçılarla dinc etirazçıları eyni tutmasını tələb etmək də doğru olmaz. Ancaq yeri gələndə dünyaya insan haqları və demokratiyadan dərs keçməyə çalışan Fransa hökumətini də ən azından özlərinin bəyan etdikləri dəyərlərə də xəyanət etməməyə səsləyirəm. Ölkələrin dünyaya car çəkdikləri dəyərlərə nə qədər sadiq olduqları adətən belə anlarda ortaya çıxır. Ümumilikdə isə biz müxalifət olaraq öz xalqımızla işləməli, onların səslərinə qulaq verməli, onların həssasiyyətlərinə və tələblərinə uyğun mübarizə metodları yaratmalıyıq. Yalnız bu halda biz müxalifət olaraq uğur əldə edə bilərik. Yoxsa kor-koranə kopyalama və mübarizə imitasiyası ilə heç nə əldə etmək mümkün olmayacaq".

**AMİP katibi Əli Orucov isə bildirdi ki, Fransada hökumət geri addım atsa da, etirazlar sengimək bilmir və Avropanın digər ölkələrinə də sıçramaqdadır. Lakin bunun Azərbaycana hansısa təsiri gözlənilmir:** "Əvvəla, Fransa Azərbaycandan çox uzaqdadır və bütün parametrlərə görə Azərbaycanla müqayisədə kəskin fərqlənir. Fransada sindikatlar, həmkarlar ittifaqı proseslərin önündədir. Və bu proseslər daha çox sosial xarakterlidir. Lakin Azərbaycanda iri müəssisələr və sindikatlar yoxdur, həmkarlar ittifaqları isə formal xarakter daşıyır. Eyni zamanda siyasi fəallıq, ictimai şüur Fransadakı kimi deyil.

Azərbaycanda müxalifət çox pərakəndə və zəifdir, siyasi mübarizə meydanı dar çərçivədədir. Ölkədəki narazılıq və etirazlar fərqi xarakter daşıyır, ictimailəşməyib, məişət səviyyəsindən yuxarı qalxmayıb. Digər tərəfdən, beynəlxalq güclərin Azərbaycanda hansısa sabitliyin pozulmasında və ya dəyişiklikdə marağı görünmür. Ona görə də nəinki Fransa kimi uzaq ölkədə, hətta bizə yaxın regionlarda demokratikləşmə proseslərinin Azərbaycana o qədər də ciddi təsiri olmur. Müxalifətin ictimai-siyasi proseslərə güclü təsiri hiss edilmir. Həmçinin xalq-müxalifət arasında əlaqə, sıx münasibətlər çox zəifdir. Problem həm də ondan ibarətdir ki, ölkədə hər hansı dəyişiklikləri kənardan gözləyən hələ də müxalif qüvvələr var. Onlar elə düşünürlər ki, Fransada, ərəb ölkələrində, yaxud elə Gürcüstanda gedən proseslərin eynisini Azərbaycana transfer etməklə nəyəsə nail olmaq olar. Lakin dəyişikliklərə nail olmaq üçün müxalifət-xalq vəhdətinə və narazı kütlənin maraqlarını ifadə etməyə, onu proseslərə cəlb etməyə, inandırmağa nail olmaq lazımdır".

AMİP yetkilisi onu da dedi ki, Azərbaycan müxalif liderlərinin xeyli hissəsi köhnəlib və uğursuz siyasətləri ilə siyasi nihilizmin yaradılmasında özləri də bilmədən iqtidara yardım ediblər. Yeni qüvvələr, yeni yanaşma, yeni simalar və yeni ruh gəlməlidir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018

**Bir neçə gün öncə musavat.com-un əməkdaşlarından biri Bakı sakinləri arasında maraqlı sorğu keçirib. O, Hacı Zeynalabdin Tağıyevi nümunə göstərərək, camaatdan soruşub ki, çağdaş dövrümüzdə də xeyriyyəçilik edən şəxslər tanıyırlarmı, bu haqda eşidiblərmi? Cəmi bir neçə adam bildirib ki, hazırda xeyriyyəçiliklə məşğul olan şəxslər var. Əlbəttə, birinci vitse-prezident Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondunun təhsil sahəsində, müalicəyə ehtiyacı olan şəxslərə dəstək verilməsində rolu böyükdür və bu qurumun adını bir neçə nəfər çəkib. Əksəriyyət isə konkret ad çəkə bilməyib. Hətta bir çoxları xeyriyyəçilərin olmadığını iddia ediblər.**

# Xeyriyyəçilik bu gün də var, sabah da... - "Balıq bilməsə də, Xaliq bilir"...

## Millət vəkili Elxan Süleymanovu yaddaşlara mesenat yazan əməlləri















Bu, ilk növbədə onun göstəricisidir ki, əksər vətəndaşlar media ilə maraqlanmırlar. Nədən ki, xeyriyyə işləri görən şəxslər barədə mətbuatda daim məlumatlar olur.

Görünən budur ki, insanlar əsasən bu məsələdə pessimistdir. Bəlkə də bu, o səbəbdəndir ki, Azərbaycanda xeyli sayda geniş imkanlara malik şəxslər olsa da, onların əksəri vəsaitlərini fərdi, biznes maraqlarına sərf edir; restoranlar, şadlıq evləri tikir və s. Amma bu təbiidir, hər kəs öz pulunu necə xərcləməyi özü müəyyən edir və buna müdaxilə etmək də doğru sayılmaz. Xeyriyyəçilik isə təkcə imkan məsələsi deyil! Bu, missiyadır, xarakterdir, hətta bir çox hallarda genetik ənənədir. Əlbəttə, gerçək xeyriyyəçilər hansısa işi onlara əl çalınması, reklam edilməsi üçün görmürlər. Bunu Heydər Əliyev Fondunun nümunəsində də görmək mümkündür. Həm fond, həm də digər bir çox xeyriyyəçilər fərdi qaydada göstərdikləri köməkliklərin açıqlanmamasını xahiş edirlər, yəni təmənna güdmürlər... "Balıq bilməsə də Xaliq bilir"...

Amma ortada bir reallıq da var: Xeyriyyəçiləri xalq tanımalıdır, onlar örnək göstərilməli və digərləri də bundan nümunə götürməlidir. Həmçinin onların adı tarixə yazılmalıdır, sabahkı nəsil də təcrübələri əsas götürməlidir. Əgər belə olarsa, vətəndaşlarımız da bu günümüz, sabahımız üçün pessimist olmaz və bilərlər ki, cəmiyyətimiz xeyirxah insanlar yetişdirməkdə davam edir...

Bu gün Hacı Zeynalabdinin ruhuna dualar oxumağımıza, adını fəxrlə çəkməyimizə səbəb əsasən onun məktəblər inşa etdirməsidir. Böyük mənada mesenatlıq fərdi qaydada kimsəə əl tutmaq da deyil. Fərdi köməkliklər daha çox ictimai yardımlaşmadır. Məsələn, heç şübhəsiz ki, zamanında Zeynalabdin bəy yüzlərlə kasıb, ehtiyacı olan insanlara əl tutub. Amma bu gün onlar xatırlanmır, məhz onun təhsil sahəsində gördüyü işlər, su kəmərləri çəkdirməsi kimi savab əməlləri tarixə yazılıb.

Müasir dövrümüzdə də məktəblər tikdirən, onlarla yaşayış məntəqəsinə su çəkdirən, təhsil təqaüdləri verən xeyriyyəçi insanlar var. Əlbəttə, onlar bunu gözə girmək üçün deyil, hansısa təmənna ilə etmədiklərindən geniş piarları da aparılmır. Ancaq əksər vətəndaşlarımızın "daha xeyriyyəçilik ənənəsi yoxdur, elə insanlar qalmayıb" kimi pessimist düşüncələrdən azad olması, insanlarımızın məlumatlı, ən əsası, bu günümüzə, sabahımıza inamlı olması üçün şahidi olduğum bir sıra faktları qeyd etməyə ehtiyac duydum.

Şamaxının millət vəkili, AVCİYA prezidenti Elxan Süleymanovun gördüyü xeyriyyəçilik işləri haqda kifayət qədər məlumatlıyam. Çünki onun təhsil sahəsində xeyriyyəçilik işlərinin 1992-ci ildən şahidiyəm. Onun ələçlar üçün təsis etdiyi Hacı Rəhim Əfəndi adına təqaüdü alan ilk şagirdlərdən olmuşam 90-cı illərin əvvəllərində. Həmin vaxtdan indiyədək şahidi olduqlarımı qeyd edəcəm, təbii, bilmədiklərim də var hələ.

Elxan Süleymanov bu müddətdə ölkə boyunca 10-dək məktəb binasını inşa və təmir etdirib. Onun tərəfindən sıfırdan inşa etdirilən, açılışında, lentinin kəsilməsində şəxsən iştirak etdiyim məktəbləri sadalayım:

- Şamaxı rayon Ərçiman kəndində 2015-ci ildə;

- Şamaxı rayon Məlcək kəndində 2017-ci ildə;

- Göyçay rayon Qaraman kəndində 2017-ci ildə Avropa standartlarına uyğun şəkildə orta məktəb binaları tikərək, kənd sakinlərinin istifadəsinə verib. Bundan başqa, o, Şamaxıda 5 orta məktəbin qəzalı vəziyyətdə olan binasının təmirini həyata keçirib, açılışını edərək istifadəyə verib.

Elxan Süleymanov Şamaxının deputatı olduğu illərdə 10-a yaxın dağ kəndinin içməli su təminatını həyata keçirib. Hansı ki, on illərdir o kəndlərin əhalisi su sarıdan korluq çəkirdi.

Rayonun Məlhəm kəndində dahi şair Əfzələddin Xaqaninin heykəlini zövqlə bərpa etdirib, həmin kəndə çəkdirdiyi bulaq "Xaqani bulağı", Sabirkənddə tikdirdiyi bulaq isə "Sabir bulağı" adlandırılıb. Yəni həm də Şamaxının fəxri olan ədiblərin xatirəsi əbədiləşdirilib.

Bundan başqa, E.Süleymanov böyük şairimiz Seyid Əzim Şirvanının qəbirüstü abidə kompleksini öz hesabına yenidən qurdurub.

O, ölkə üzrə hazırda 100-dən çox şagirdə ələçi təqaüdü verir. Bu təqaüdlər heç də simvolik məbləğlər deyil, bir şagirdin dəftər-kitab xərcləri ilə yanaşı, hətta ailəsinə kömək edə biləcək qədərdir. Süleymanov Hacı Rəhim Əfəndi adına mükafatla bərabər, Azərbaycan Müəllimlər İnstitutunun Şamaxı filialının və Şamaxı Humanitar Kollecinin tələbələri üçün Ə.Xaqani və S.Ə.Şirvani təqaüdləri də təsis edib. 2010-cu ildə Şamaxının millət vəkili seçiləndən sonra - 2011-ci ildən başlayaraq onun təşəbbüsü və dəstəyi, rəhbəri olduğu AVCİYA və Söz Azadlığını Müdafiə Fondunun təşkilatçılığı ilə hər il Şamaxıda Sabir yaradıcılığına həsr olunmuş bədii qiraət müsabiqəsi keçirilir. Bu müsabiqənin ümumilikdə 70-dən çox qalibləri də onun mükafatçılarıdır.

10-dan çox imkansız ailələrdən olan tələbənin isə təhsil haqqını ödəyir.

Fərdi qaydada çox savab işlər görür və təbii, mən bunların hamısını bilmirəm. Bildiklərim isə budur ki, Bakıda, Şamaxıda, Göyçayda və digər regionlarda onlarla kimsəsiz, ehtiyacı olan ailələrə yardımlar təyin edib və illərdir həmin ailələr onu alır. Bir neçə şəhid ailəsini tam himayəyə götürüb.

Eyni zamanda hər il azı 10 ağır xəstənin müalicəsi, əməliyyatı üçün büdcə ayırır.

Yuxarıda bir qeyd vermişdim ki, xeyriyyəçilik təkcə imkan məsələsi deyil. Bu həm də genetik bir xarakterdir. Əyani sübutu odur ki, Elxan Süleymanovun babası Hacı Rəhim Əfəndi 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Göyçay qəzasında ilk dünya elmlərini tədris edən məktəb açan şəxs, xeyriyyəçi insan olub.

E.Süleymanov tədbirlərində hər dəfə bunu təkrarlayır: **"Bu gün ölkəmizdə böyük quruculuq, abadlıq işləri görülür və bunların müəllifi Prezidentimiz, Cənab İlham Əliyevdir. Biz onun gördüyü işlərə dəstək veririk, eyni zamanda babamdan yadigar qalan xeyriyyəçilik ənənələrini yaşadırıq. Xeyriyyəçilər hər zaman olub. Bu gün də var, sabah da olacaq. Xalqımız bu ənənəni yaşadacaq və yaşatmalıdır"...**

**❑ Elşad MƏMMƏDLİ, "Yeni Müsavat"**

# Meydanlardan seçkiyədək: avans bitdimi?..



**Hüseynbala SƏLİMOV**

**"Alim olmaya bilərsən, amma elmlər namizədi olmalısan". İnanırsınızmı, heç özüm də bilmirəm, niyə dünyadakı proseslərin siyasi evolyusiyası haqqında düşünərkən ixtiyarsız olaraq məşhur komediyanın bu sözləri yadıma düşür?**

Amma yox, görünür, bu da təsadüfi deyil, çünki siyasət dünyasında əxlaq qaydaları olmasa da, hər halda, oyun qaydaları var: bütün hakimiyyət dəyişmələri məzmunca demokratik olmasa belə, hər halda, demokratik görüntü, tərtibatla başa çatmalıdır.

Bəli, tərtibat, tərtibat və yenə də tərtibat, çünki demokratik dünyanın qeyri-demokratik ölkələrdəki prosesləri bircə - bircə izləməyə nə həvəsi var, nə də vaxtı, onlar üçün də əsas odur ki, seçki oyunu qurulsun - bülletenlər paylansın, seçki məntəqələri işləsin, insanlar gəlib səs versin -bəli, əsas budur...

Sonrası... Bəli, sonrası da budur ki, ölkələr var ki, onlar üçün bu proses lap axıra qədər beləcə dəqiq və dürüst keçir, ölkələr də var ki, səhər saat səkkizdən axşam saat səkkizə qədər hər şey demokratik ölkələrdə olduğu kimi baş verir, sonra isə, bəli, səkkizdən sonra "dədə-baba qaydaları" işə düşür; bir də görürsən, məntəqələrdə işıqlar sönür, müşahidəçilər bülletenlərin sayılmasından kənarlaşdırılır, hətta kiçik dava-dalaş düşür, üstəlik, məlum olur ki, artıq bir neçə gün əvvəldən bülletenlər sayılıb və səliqə ilə üst-üstə yığılıbdır...

Yox, demirəm, Ermənistanda da hər şey belə oldu - bunu iddia etmək üçün sübut-dəlilim yoxdur. Amma o da var ki, heç kim məni inandıra bilməz ki, seçki ərəfəsi şərait demokratiyanın tələblərinə tamam cavab verirdi: yüksək, ülvi məqsədlərə xidmət etsə də, inqilablar bu məqsədlərə aparan zorakı, bəli, zorakı üsullardı - təəssüf ki, belədir. Ona görə də bu halda da tələb birdir: hakimiyyət seçki yolu ilə institutlaşmalı və legitimləşməlidir.

Odur, bir müddət idi ki, hamı səbrlə Ermənistandakı seçki proseslərinin bitməsini gözləyirdi. Ölkədə də formal olaraq demokratik fon yaradılmışdı, amma daha çox o kəslərçün ki, seçki onların hakimiyyətinə legitim məzmun verməli idi.

Bəli, ən avtoritar ölkələrdə belə yazılmamış bir qayda vardır ki, seçki vaxtı istədiyini deyə, ürəyindən keçən vədi verə bilərsən: düşünürük ki, cənab Paşinyanın da "baqaj"ında nə qədər şirin vədlər vardısa, hamısını işə saldı; böyük Hayastan haqqında nağıllardan tutmuş korrupsionerlərin hesabına dolacaq büdcə haqqındakı şirin xəyallaradək...

Amma bitdi. Daha doğrusu, hamı hesab edir ki, artıq bitdi. N.Paşinyanın özü necə hesab edir, necə düşünür - bunu bilmirik...

Bir daha deyirik ki, seçkiyə qədər siyasətçilər hərbi and içməmiş əsgərlərə bənzəyir, həmin dövrdə onlara istənilən "nadinclik" bağışlanır. Elə ki, seçki bitir, bundan dərhal sonra siyasətin sərt qanunları işə düşür.

Düzdür, Paşinyanın sərəncamında yenidən "təptəzə baş nazir "rolunu oynamaq şansı da var. Bəli, yenidən "yüz gün" olacaq, Nikol müəllim bir daha insanları meydanlara toplayacaq ki, onun "yüz günlüyü" münasibətilə təzədən əl çalsınlar. Amma bu da yalnız bir dəfə ola biləcək. Sonra, bəli, sonra iş başlanmalıdır, N.Paşinyan nəhayət ki, parlamentə əsl proqram təqdim etməli, özünün siyasi-iqtisadi kursunun əsas istiqamətlərini bəyan etməlidir.

Üstəlik, qarşıda Dağlıq Qarabağ probemi də var. Əlbəttə ki, bu problem İrəvan üçün Bakı qədər aktual deyil. Amma dəfələrlə demişik ki, Ermənistanın sosial - iqtisadi dirçəlişinin başlanğıcı məhz bu problemin həllindən asılı kimi görünür.

Təsadüfi deyil ki, eyni sözləri N.Paşinyana ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi C.Bolton da demişdi: problemlərinizin azalmasını istəyirsinizsə Qarabağ problemini həll edin!

Üstəlik, nəinki regionun bilavasitə özündə, hətta bir az uzaq məkanlarda da siyasi müşahidəçilər "yeni Ermənistan reallıqları"nın nə demək olduğunu bilmək və onların Dağlıq Qarabağ müstəvisinə proyeksiyasını görmək istəyirlər. Paşinyanın davranışı bu gözləntilərə nə qədər adekvat olacaq? Bax, bunu bilmirik, çünki əvvəllər də yazmışıq ki, folk-siyasətin möhürü uzun müddət onun təmsilçilərinin üzərində qalır...

Amma o da var ki, avans bitir. Bəli, meydanlardan seçki məntəqələrinədək - insanların hamısı olmasa da, böyük qismi rəğbət bəslədikləri siyasətçi, lider ilə bu yolu keçirlər, bundan sonra isə tamam yeni münasibətlər yaranır, insanlar "sevimli lider"lərindən tələb etməyə başlayırlar. Bu tələblərin nəticəsində isə bir də görürsən ki, liderin geriyə yolu başlayır. Odur, düşünmək lazım deyil ki, siyasi konfiqurasiya həmişə elə belə də qalır: sən tribunada, insanlar isə aşağıda. Bəzən başqa cür də ola bilir: insanlar tribunada olur, sənsə qəfəsin arxasında...



# Ermənilərdə və bizdə vətənsevərlik

Zamin HACI
zaminhaci@gmail.com

**Ermənistanda keçmiş prezident Robert Köçəryanı tutub qoduqluğa salıblar, hansısa cinayətlər törədibmiş. Su çanağı suda sınar, necə deyərlər. Başqa xalqlara qarşı cinayət törətmiş adamın öz xalqına da qarşı haçansa cinayət törədəcəyi gün kimi aydın məsələdir, tarixdə dəfələrlə öz təsdiqini tapmışdır. Cinayətkarın milliyyəti yoxdur deyiblər, eyni zamanda, cinayətin də milliyyəti olmur, biləsiniz. İnsan hər yerdə insandır. Xocalıda, Qarabağda azərbaycanlıların başını kəsmiş Köçəryanın axırda erməni xalqının da qanını axıdacağı gözlənilən idi. İndi onu yanılmıramsa, 2008-ci ildə İrəvanda mitinqçiləri öldürməkdə suçlayırlar. Hərçənd Köçəryan elə 90-cı illərdə azərbaycanlılara qarşı müharibəni qızışdırarkən də nə qədər günahsız erməninin ölümünə səbəb olmuşdu.**

Dünən onun vəkilinin İrəvanda müxbirin sualına bizim dildə "bilmirəm" cavabını verməsi isə əsl lətifədir. İndi nə edək? Yoxsa biz "bilmirəm" sözündən də əlimizi üzək? Ermənilər oğurlayıb-çırpışdırıb indi feillərimizi də qapazlayırlar. Nə gözü doymaz xalqdır... Ancaq nə qədər oğurlasalar da, məncə, ermənilər bizim laqeydlik və qeyri-vətənpərvərliyimizi əlimizdən ala bilməyəcəklər. Daha doğrusu, "alammazlar" yazım, çünki "bilməyəcəklər" sözü artıq ermənicə sayılır, heyf.

Tələbə vaxtı aran rayonumuzdan olan bir dostum danışmışdı, lətifəyə bənzər olay idi, bəlkə də gerçək idi, dəqiq bilmirəm (feili acığa yazdım bu dəfə). Deyir həmin rayondan Nüsrət adlı adam Rusiyada yaxşı iş-güc qurur, zavod direktoru olur. Bunun kəndçiləri isə Azərbaycanda acından ölürmüş. Bir gün həmin kənddən 30 nəfər yığışır gedir Rusiyaya, Nüsrətin qəbuluna yazılır. Katibə deyir, müdir, kəndçilərin gəlib. Nəsə, Nüsrət müəllim bunları qəbul edir. Adamlar deyir, ay Nüsrət, bizim durum çox ağırdır, sənin də imkanın pis deyil, bizə burada hansısa iş-güc ver, dolanaq, balalarımıza çörək aparaq. Nüsrət qəzəblə bunları qovub deyir: "Mən 20 ildir güzgüyə baxmıram ki, öz rayonumuzdan olan adam görərəm, siz də gəlmisiniz iş verim?! İtilin, bir də sizi görməyim!"

Bu mənim yadıma 2-3 gün qabaq, Rusiyada hava limanlarına tanınmış adamların adlarının verilməsi üzrə ümumölkə səsverməsinin nəticələri açıqlananda düşdü. Yəqin xəbəriniz var, məşhur geoloq, neftçi soydaşımız Fərman Salmanovun adını Surqut hava limanına veriblər. Başqa bir həmyerlimiz Sabit Orucovun adını isə Nijniy Urenqoy şəhər aeroportuna vermək ideyası var. Açığı, Salmanovun adını alababat olsa da bilirdim, ancaq Orucov haqda ilk dəfə eşidirdim. O isə nə az, nə çox: SSRİ-nin qaz sənayesi naziri olubmuş!

Onu tanımamaq tək mənim günahımdırmı? Yox. Nə sirdirsə, bizimkilər qırağa çıxanda, özlərini tutanda vətən yaddan çıxır. Bir erməni isə əlinə imkan düşəndə başqa erməniləri də yuxarı dartır. Bunun tipik örnəyini hələ yüz il qabaq Mirzə Cəlil yazmışdı. Deyir erməni kilsəsinin yanında keçirdim, eşitdim içəridə keşiş üç dəfə "vətən, vətən, vətən" dedi. Müsəlman məscidinin yanında isə görür axund kitab açıb camaata oxuyur: "Əgər bir müsəlman yatıb yuxuda həcəmət görə, onun işi yaxşı olar".

İndi də belədir. 90-cı illərdə ermənilərin Eçmiədzin kilsəsi nə qədər uşağın məktəb xərcini ödəyirdi. Bizdə hansısa məscidin ianəsi ilə bir tələbəyə təqaüd kəsildiyini görmüsünüz?

Rusiyada neçə dənə milyarderimiz var, adları hansısa rəqqasənin göbəyinə milyon dollar qoymaqla çəkilirdi. Ömürləri boyu bir yaralı barmağa "çiş" eləməyiblər. Qarabağda savaş getdi, bir patron alıb yollamağa qanacaqları çatmadı. Dükanlarının gündəlik xərciylə neçə rayonun qaçqınlarına yardım eləmək olardı, ancaq biz Norveçdən, İsveçdən yardım dilənirdik. Vətənin ağır günündə yoxa çıxan bu yaramazlar, maraqlıdır ki, neft pullarımız gələndə - 2005-ci ildən sonra peyda olmağa başlamışdılar. Şirəyə gəlirdilər. Neftin qiyməti düşəndə yenə yoxa çıxdılar.

Əslində mən Azərbaycandan çıxıb qınını bəyənməyənləri, ya da yuxarıda yazdığım Nüsrət müəllim demişkən, "güzgüyə baxmayanları" anlamağa çalışıram. Görün onlar burda necə pis münasibət, qeyri-insani rəftar görüblər... Misal üçün, Fərman Salmanovun atası 1937-ci il repressiyasının qurbanı olub. 1931-də doğulan Fərman 3 balaca uşağı saxlamaqda anasına kömək edib, min bir əziyyət çəkib. Onun hətta babasını da 1880-ci illərdə Sibirə sürgün ediblərmiş. Səbəbi isə əcaib bir şey: babası Şəmkirdən Gəncəyə gələndə Gəncənin imamı bundan nəsə zorla pul almaq istəyib, kişi verməyib. İmam hökuməti çağırıb, kişini 20 illiyə (!) sürgün ediblər.

Araşdırsaq Sabit Orucovun da taleyində nəsə bənzər, sağalmaz yaralar tapılacaq, o üzdən heç axtarmayaq.

**Ermənistanda 9 dekabr parlament seçkilərində möcüzə baş vermədi. "Məxməri inqilab" nəticəsində 7 aydır hakimiyyətdə olan Nikol Paşinyanın "Mənim addımım" bloku, proqnozlaşdırıldığı kimi, seçkilərdən mütləq qalib kimi ayrıldı - 70.43%. Bu, Ermənistanın müstəqillik dönəmində seçicilərin ən az iştirak etdiyi (48%) seçkilər kimi tarixə düşsə də, hər millətin "nüvə"sini təşkil edən ictimai-siyasi fəal kəsim düşmən ölkədə də öz sözünü dedi. Yəni bu, əslində elə xalqın iradəsidir ki var.**



# Ermənilər Rusiyadan uzaqlaşmağa səs verdilər - Qarabağda müharibə yaxınlaşır?

**Paşinyan kursu dəyişmək üçün xalqdan mandat aldı:** yeni parlamentdə konstitusion çoxluq qərbpərəstlərdə olacaq, erməni lider "iki stul"da otura bilməyəcək; Azərbaycanla böyük sülh, yoxsa müharibə ehtimalı artır? Politoloqlar deyirlər ki...

Paşinyan tərəfdarlarının qələbəsi öncədən şübhə doğurmasa da, 9 dekabr səsverməsinin yekunu bir neçə mühüm qənaətə gəlməyə imkan yaradır. Biri odur ki, Ermənistanda Qarabağ klanının 20 illik hakimiyyətinə rəsmən son qoyuldu. İkincisi, Paşinyanın rəhbərlik elədiyi blok (70.43%) və onunla siyasi baxışları üst-üstə düşən qərbpərəst "İşıqlı Ermənistan" Partiyası (6,37%) səslərin 77%-nə sahib oldular. Bu, o deməkdir ki, yeni parlamentdə nəinki sadə, konstitusion (2/3) çoxluq da qərbpərəst qüvvələrə məxsus olacaq. Nikol Paşinyan təkbaşına öz hökumətini formalaşdıracaq, lazım gəlsə konstitusiyaya əlavə və düzəlişlər ediləcək.

Üçüncü mühüm məqam: parlamentə yalnız üç siyasi qüvvə düşdü - qərbpərəstlər və bir də Qaqik Sarukyanın "Çiçəklənən Ermənistan" Partiyası (8.37%). Hətta Ermənistanın qədim və köklü siyasi təşkilatı sayılan, Rusiyaya isti münasibətdə olmayan Daşnaksütyun da parlamentdə təmsil olunmaq hüququ verən 5%-lik həddi aşa bilmədi (3.89%). Həmçinin Rusiya bazalarını ölkədən çıxarmağı tələb edən radikal-terrorçu qruplaşma - "Sasna tsrer" partiyası barajı keçmədi - 1,82%.

Bunlar Rusiya üçün müəyyən mənada təsəlliverici nəticələr olsa da, artıq qeyd olunduğu kimi, bütövlükdə yeni parlament qərbpərəst qüvvələrin nəzarətində olacaq. Demək, yeri gələndə Rusiya ilə imzalanmış hansısa sənəd asanca ratifikasiya olunmaya və rədd də edilə bilər. Paşinyanın anti-Rusiya ovqatı isə seçkilərə cəmi 2 gün qalmış Putinin sadiq dostlarından olan eks-prezident Robert Köçəryanın təzədən həbs edilməsində bir daha özünü büruzə verdi.

*****

Seçkilərin nəticələri əlbəttə ki, bir yandan artıq legitim ölkə rəhbəri kimi Paşinyanın əl-qolunu açırsa, o biri yandan onun üzərinə konkret, tarixi məsuliyyət qoyur. Xüsusən də iki məsələdə: 1. Rusiya münasibətdə xarici siyasət kursunu dəqiqləşdirmək. Məsələ ondadır ki, 9 dekabrda xalq, əsasən qərbyönlüləri dəstəkləməklə, faktiki, Rusiyadan uzaqlaşmağa səs verib; Paşinyan daha "iki stul"da otura bilməyəcək. 2. Qarabağ məsələsində "nala-mıxa" vurmağa son verib qəti mövqe sərgiləmək. Bu isə Rusiya amili nəzərə alınmaqla, Qarabağda sülhü də yaxınlaşdıra bilər, müharibəni də.

Söz düşmüşkən, rəsmi Bakı dəfələrlə xəbərdarlıq edib ki, əgər Ermənistandakı yeni hakimiyyət əvvəlki xunta rejiminin səhvlərini təkrarlayıb onun yolunu getsə, onda müharibə qaçılmaz olacaq.

Politoloq Elxan Şahinoğluna görə isə qarşıda N.Paşinyanı 3 çətin vəzifə gözləyir: **1.** Qarabağ münaqişəsinin həllində addım atmazsa, cəbhə bölgəsində vəziyyət gərginləşəcək, üstəgəl, Qarabağdakı girovlarımızın "hamının hamıya" dəyişdirilməsini uzada bilməyəcək; **2.** İqtisadi islahatlar aparmaq üçün əlavə vəsaitə ehtiyac var, o biri yandan isə Ermənistanın artan xarici borc problemini həll etməlidir; **3.** Xarici siyasət kursunu müəyyənləşdirməlidir - Rusiya və Qərb arasında vurnuxmaq Moskvanın xoşuna gəlmir, ancaq Qərbə yaxınlıq da Paşinyana xüsusi divident vəd etmir.

Məsələ də ondadır ki, sadalanan vəzifələrin hamısı (**Qarabağ, islahatlar, xarici siyasət kursu**) hamısı bir-biri ilə sıx surətdə bağlıdır. Rusiyanın hərbi-siyasi ağuşunda olan bir ölkədə xüsusən də köklü iqtisadi-siyasi islahatlar həyata keçirmək asan olmayacaq. Çünki digər iki amil, o cümlədən sərhədlərin və kommunikasiyaların bağlı olması, blokada rejimi əngəl olacaq.

Xalq isə Paşinyana mandatı uzun müddətə verməyib və çox tezliklə öz həyatında, dolanışığında ciddi və müsbət dəyişikliklər görmək istəyəcək. Necə deyərlər, Nikol Paşinyan və komandası üçün "qum saatı" artıq işə düşüb. Müxalifət indi heç vaxt olmadığı qədər pusquda olacaq. Bir sözlə, Paşinyan tələsməli olacaq. Siyasətdə, xüsusən də xarici siyasətdə təcrübəli olmayan erməni lideri üçün isə bu, həm də xətalar vəd edir.

*****

**"Paşinyan və partiyası belə bir legitimliklə və sosial-siyasi kapitalla təbii ki, öz partiyasını formalaşdırmağa çalışacaq. Odur ki, ardınca onun yaxın zamanda söykənəcəyi yeni hökumət proqramını açıqlamasını gözləyək". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri Rusiyadakı MDB İnstitutunun erməni filialının direktoru Aleksandr Markarov Ermənistandakı son seçkilərin nəticələrini "Vestnik Kavkaza"ya şərh edərkən deyib.**

**Onun sözlərinə görə, qarşıdakı bir neçə ayda Nikol Paşinyandan ötrü əsas vəzifə özünün əhali arasında yüksək reytinqini saxlamaqla bağlı olacaq:** "70-80%-lik reytinq - həqiqətən Paşinyanın şəxsi reytinqidir. "Mənim addımım" blokunda o, aşağıdır. İqtisadiyyatda və siyasətdə mümkün dəyişikliklər eləmək üçün bu reytinqin saxlanması vacibdir. Əgər buna nail olunarsa, nəticələr vətəndaşlar üçün müsbət olarsa, o zaman reytinq də yüksək olacaq".

Paşinyanın ən böyük problemi də elə odur ki, o, azad, müstəqil ölkənin rəhbəri deyil. Xarici sərhədlərini belə, rus hərbçilərinin qoruduğu, təhlükəsizliyi bilavasitə Rusiyadan asılı olan bir ölkənin qərbpərəst liderinin çoxmənhullu "tənliyi" necə həll edəcəyi olduqca maraqlıdır. Ancaq bu tənliyin daha asan həll yolu var - Azərbaycanla, Türkiyə ilə tezliklə anlaşmaq. Əks halda, Paşinyan Qarabağda Rusiyanın da maraqlı olacağı istisna edilməyən müharibədən yayına bilməyəcək...

❑ Siyasət şöbəsi, "Yeni Müsavat"

**Ermənistanın yeni parlamentində 132 deputat olacaq. Bundan əvvəlki çağırışda isə deputatların sayı 105 olub. Modern.az erməni mediasına istinadən xəbər verir ki, deputatların sayının 105-dən 132-yə qalxması Paşinyanın başçılıq etdiyi "Mənim addımım" blokunun 70%-dən çox səs alması ilə bağlıdır. Belə ki, Seçki Məcəlləsi müxalifətin ən azı kürsülərin 31-dən çoxunu tutmasını tələb qoyur. Hesablamalar göstərir ki, hakim "Mənim addımım" bloku parlamentdə 88 mandata malik olacaq. "Çiçəklənən Ermənistan" Partiyası əlavə yerlərlə birlikdə 26, "İşıqlı Ermənistan" isə 18 deputat kürsüsünə malik olacaq.**

# "Paşinyanın əleyhdarları revanşa hazırlaşır"

## Ermənistandakı "seçki oyunu"na Azərbaycandan maraqlı reaksiyalar



Ancaq ermənilər daxil, əksəriyyət hesab edir ki, seçkilər total saxtakarlıq şəraitində keçib. Ermənistanda parlamentə keçirilən növbədənkənar seçkilərdə qeydiyyatda olan seçicilərin, sadəcə, 48, 63%-i seçkidə iştirak edib. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bu barədə Ermənistan Mərkəzi Seçki Komissiyasının sədri Tiqran Muçuqyan məlumat verib.

**"Ermənistanda birmənalı olaraq qərbyönümlü qüvvələr hakimiyyətə gəldi". Bunu axar.az-a Ermənistanda 9 dekabr növbədənkənar parlament seçkilərinin nəticələrini şərh edən sabiq dövlət müşaviri Qabil Hüseynli deyib. Politoloq bildirib ki, küçə inqilabı nəticəsində hakimiyyətə gəlmiş Paşinyan statusunu legitimləşdirə bildi:** "Digər gözlənilməz fakt ondan ibarətdir ki, Paşinyanın "Mənim addımım" bloku ilə yanaşı, parlamentə cəmi 2 partiya keçdi. Hər iki partiya (Çiçəklənən Ermənistan və İşıqlı Ermənistan) qərbyönümlüdür. Bu, artıq perspektivdə Rusiya ilə müəyyən qarşıdurmalardan xəbər verir. İrəvanla Moskva arasında gərginlik artacaq".

**Politoloq Paşinyanı qarşıda çətin günlərin gözlədiyini deyib:** "Paşinyan 7 ay bundan öncə də hakimiyyətə gələrkən erməni əhalisinə çoxlu vədlər verib. Bu vədlərin içərisində iqtisadi islahatlar, xarici investisiyaların cəlb edilməsi, yeni iş yerləri, əhalinin maddi rifah halının yaxşılaşdırılması yer alır. Verilmiş sözlərin yerinə yetirilməsinin zamanı çatıb. Paşinyanın bunun öhdəsindən gələcəyi isə sual altındadır. Nikolun yalnız bir çıxış yolu var, o da Dağlıq Qarabağ probleminin həllidir. Ermənistan bölgədəki inteqrasiya proseslərinə qoşulmaq üçün mütləq işğalçılıqdan imtina etməli və bölgədə normal qonşuluq münasibətlərinin yaranmasına töhfə verməlidir. Hər halda, Ermənistan Gürcüstandan ibrət götürə bilər. Azərbaycan ən böyük iqtisadi layihələrini Tiflis vasitəsilə həyata keçirir və bu gün Gürcüstan büdcəsinin 42 faizini həmin layihələrdən gələn gəlirlər təşkil edir. Əgər Ermənistan danışıqlar prosesini beynəlxalq hüquq normalarına və BMT qətnamələrinə uyğun surətdə aparsa, onda Paşinyan xalqına verdiyi vədləri yerinə yetirmək iqtidarına malik olacaq. Əks təqdirdə, Ermənistan çox pis vəziyyətdə qalacaq. Hətta belə bir vəziyyətdə Paşinyan idarəetməni də itirə bilər".

**"Ermənistanda "seçki oyunu" oynanıldı". "Trend"in məlumatına görə, bunu Milli Məclis sədrinin müavini Bahar Muradova dekabrın 9-da Ermənistanda keçirilən növbədənkənar parlament seçkilərini şərh edərkən deyib. B.Muradova qeyd edib ki, bu seçkinin əvvəlcədən istənilən nəticəni verməsi üçün bütün addımlar atıldı, buna mane ola biləcək şəxslər, dairələr, təşkilatlar sıradan çıxarıldı, vətəndaşlar kifayət qədər qorxuldulu:** "Ermənistanda keçirilən seçkilərdə "Seçsəniz də, seçməsəniz də, baş nazir özüm olacağam" prinsipi ilə hərəkət edildi və nəticə ortadadır. Ermənistanda əvvəlcədən bəlli bir nəticə, sadəcə, təsdiq olunmalı idi. Düşünürəm ki, Ermənistan vətəndaşlarının bu məsələyə münasibəti ortadadır və bu seçkinin nəticələrini təsdiq etməklə legitimlik qazanan siyasi şoumenlərin rəhbərliyi altında yaşamaq, işləmək istəyib-istəmədiklərinə özləri qərar verməlidirlər. Bu onların şəxsi həyatlarıdır, daxili işləridir, amma hər halda, regionda baş verən hadisə kimi bizi də narahat edir və maraqlandırır".

**Vitse-spiker əlavə edib ki, Ermənistanda keçirilən seçkilərlə bağlı dünyanın müxtəlif mərkəzləri, seçkilərin nəticələrini dəyərləndirən beynəlxalq təşkilatlar, o cümlədən ATƏT obyektiv mövqe ortaya qoymalıdır:** "Onlar səsvermə günü belə, ən müxtəlif təzyiq və təhdid dolu çağırışların müşayiəti ilə keçirilən seçkilərə öz obyektiv münasibətlərini bildirməlidirlər". **B.Muradova bildirib ki, bir çox ekspertlərin söylədiyi kimi, seçkilərdən sonra Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı ciddi həllediçi dəyişikliklərə imza atılacağı qənaətində deyil:** "Elə seçki öncəsi də Dağlıq Qarabağda Ermənistan vətəndaşlarının hərbi xidmət etməsi ilə bağlı səsləndirilən fikirlər, Paşinyanın açıqlamaları - bütün bunlar seçkiyə hesablanmışdı".

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ilkin məlumatlara görə, 70 faiz səslə Nikol Paşinyan "Mənim addımım" bloku çərçivəsində qələbə qazanıb:** "Məlumdur ki, səsvermə prosesində kütləvi qanun pozuntuları baş verib və buna baxmayaraq artıq iki partiya da baryeri keçərək "Çiçəklənən Ermənistan" və "Parlaq Ermənistan" parlamentdə təmsil olunacaq. Lakin narazılıqlar həddən artıq çoxdur. Əsasən də Sərkisyanın rəhbəri olduğu Respublika Partiyası 5 faizli baryeri keçə bilmədi. Seçkidə çox az insan iştirak edib, gələnlər isə əsasən yaşlı adamlar idi. Bu da onu göstərirdi ki, Ermənistanda insanlar Paşinyan hakimiyyətinə o qədər də inanmır və seçkilərin qeyri-şəffaf keçiriləcəyini bildikləri üçün səsvermədə iştirak etmirlər. Digər səbəb də Paşinyanın dövlət idarəçiliyində səriştəsizliyi, mitinq siyasəti ilə dövləti idarə etmək istəyidir. Bundan başqa, əsas məqam kimi Qarabağ klanının neytrallaşdırılması və Bako Saakyanın radikal millətçi qruplarla əvəz etmək istəyidir. Paşinyan özünü baş nazir etmək üçün bütün rıçaqlardan istifadə etdi. Qərb və Rusiya arasında oyunbazlıq, KTMT-yə qarşı çıxaraq onun nüfuzuna xələl gətirmək, Xaçaturovun geri çağırılması, Köçəryanın həbsi, Dağlıq Qarabağa səfərlər, Rusiya əleyhinə bəyanatlar, Rusiya şirkətlərinin yoxlanması və böyük yeyinti faktlarının ortaya qoyulması kimi variantlar Paşinyanın əsas kredosu idi". **A.Nağıyev bildirdi ki, Kreml hələlik təmkin göstərir:** "Bilir ki, əsas məsələ Paşinyanın bu qışı keçirmək üçün atacağı addımlarla bağlıdır. Bu çox çətin bir məqamdır. Bəzi qubernatorları seçki ərəfəsində dəyişmək də bir siyasi gediş idi. Nəyin bahasına olursa-olsun yazda seçki keçirməmək Paşinyanın əsas arzusu idi. Paşinyan seçkini "demokratik" adlandırsa da, Respublika Partiyası onlara edilən təzyiqləri ön plana çəkir. Məhz Köçəryanın həbsini də bununla əlaqələndirirlər, baxmayaraq ki, Köçəryan bununla gələcəkdə milli qəhrəman obrazı yaratmağa çalışır. Yeni Xaçaturov haqqında cinayət işi və Arutunyanın axtarışa verilməsi də bu seriyadandır. Yeni seçilən parlamentdə 101 deputat olmalıdır, müxalifət demək olar ki, parlamentdə yox səviyyəsində olacaq. Ermənistan vətəndaşları da nə Paşinyana, nə də onun partiyasına və gələcəyinə inanmır. Onun bloku na da səs verənlər əsasən mitinq siyasətinə aldananlardır. Sərkisyan özünə uyğun olan bir konstitusiya yaratmışdı, bu gün bunu Paşinyan davam etdirir. Yəni Paşinyanın doğrudan da çətin günləri başlayır, bu bütün istiqamətlərdə olacaq, həm də ən çətin problem olan Dağlıq Qarabağ məsələsinin həllində. Bu düyünü açmağa cəhd göstərilində o hiss edəcək ki, bütün regional aktyorların da marağı nəzərə alınmaqla proses getməlidir, tək tarixi yalanları ortaya atıb onun əsirinə çevrilməklə heç nəyə nail olmaq olmaz".

"İşıqlı Ermənistan" artıq müxalifətə keçdiyini bəyan edib. Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov isə iddia edib ki, "bu, məğlubiyyət deyil, uğur və qələbədir". Görünən budur ki, Paşinyanın əleyhdarları revanşa hazırlaşır...

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**



## Nikol Paşinyanın heykəli dağıdılıb

**Ermənistanın baş naziri səlahiyyələrini icra edən Nikol Paşinyanın heykəlinə hücum olub.**

"Report" Ermənistan KİV-inə istinadən xəbər verir ki, abidə bu ilin sentyabrında Vanadzor-Gümrü avtomobil yolunun kənarında qoyulub.

Bu heykəl inqilabın rəmzi sayılır. Naməlum şəxslər N.Paşinyanın abidəsinin ayağının bir hissəsini qopararaq oğurlayıblar.



## İqor Dodon prezidentlik vəzifəsindən uzaqlaşdırıldı

**Moldovanın Konstitusiya Məhkəməsi parlamentin bəzi qanunlarını imzalamadığı üçün İqor Dodonu ölkə prezidenti vəzifəsindən növbəti dəfə müvəqqəti uzaqlaşdırıb.**

AzərTAc yerli mətbuata istinadla xəbər verir ki, Konstitusiya Məhkəməsi bu barədə qərarı deputatların iddiası əsasında çıxarıb.

Qanunvericiliyə görə, prezidentin səlahiyyətləri Moldova parlamentinin sədri Andrian Kanduya keçib.

Qeyd edək ki, artıq beşinci dəfədir İ.Dodonun prezidentlik səlahiyyətləri müvəqqəti əlindən alınır. İlk dəfə 2017-ci ilin yazında prezidentlik vəzifəsinə xitam verilib.



# İsveçrə Gülnarə Kərimovanın milyonlarını Özbəkistana verəcəkmi...

## Politoloq: "Qərb pulların geriyə qaytarılması məsələsində çox ehtiyatlıdır"

**Özbəkistanın birinci prezidenti İslam Kərimovun qızı Gülnarə Kərimovanın əmlak mübahisəsi yenə gündəmə gəlib. Məlumat üçün qeyd edək ki, bu ilin iyun ayında Azadlıq Radiosunun özbək xidməti məlumat vermişdi ki, İsveçrə hökuməti dondurulmuş pulların əsl sahibinin Özbəkistan olduğuna inanır və özbək hökumətində dəyişiklik həm hüquqi, həm də mənəvi olaraq ölkəyə pulların qaytarılmasına haqq verir.**

Lakin sonradan İsveçrə məhkəməsi Kərimovanın şikayətini rədd edərək, ona məxsus dondurulmuş vəsaiti (800 milyon İsveçrə frankı) qaytarmaqdan imtina etdi.

Bu günlərdə isə İsveçrə Daxili İşlər Nazirliyi məlumat yayaraq bildirib ki, Kərimovaya məxsus 800 milyon frankı özündə saxlamaqda maraqlı deyil.

Onu da qeyd edək ki, Gülnarə Kərimova uzun müddətdir ki, Özbəkistanda həbsdədir. Onun konkret harada və hansı şəraitdə saxlanıldığı bilinmir. Bəzi məlumatlarda Kərimovanın bu ilin oktyabrında azadlığa çıxdığı bildirilsə də, bu məlumat rəsmi formada təsdiqlənməyib.

2017-ci ilin 28 iyununda Özbəkistanın Baş Prokurorluğu Gülnarə Kərimovaya dələduzluq, xarici valyutanın gizlədilməsi, gömrük qanunvericiliyinin pozulması, ticarət və xidmət qaydalarının pozulması, sənəd saxtalaşdırılması, cinayət fəaliyyəti ilə əldə olunan gəlirlərin qanuniləşdirilməsi ittihamları üzrə cinayət işinin açıldığını elan etdi.

İstintaqın versiyasına görə, Kərimova cinayət ortaqları ilə birgə 12 xarici ölkə ərazisində dəyəri 1,3 milyard dollar, 63,5 milyon avro, 27,1 milyon funt sterlinq və 18,5 milyon frank aktivlər leqallaşdırıb. İsveçrə ərazisində isə 777,8 milyon dollarlıq pul vəsaiti olduğu bildirilir. Dövlətə və vətəndaşlara vurduğu ümumi zərər isə 1,27 trilyon sum, 1,6 milyard dollar və 26, 1 milyon avrodur.

İndiyə qədər Avropada, Qərbdə bu kimi hallar tez-tez baş verib. Lakin əksər hallarda diktatorların müxtəlif yollarla əldə etdikləri vəsaitlər, mülklər ölkələrinə qaytarılmayıb. Məsələn, sonuncu İran şahı Məhəmməd Rza Pəhləvinin milyardlarla dollar pulunun hələ də Amerikada saxlanıldığı bildirilir. Bu pulların yalnız kiçik bir hissəsinin İrana qaytarılması ilə bağlı xəbər yayılıb.

Eləcə də devrilmiş və linc edilərək öldürülmüş Liviya diktatoru Muammar Qəzzafinin Belçika banklarında BMT Təhlükəsizlik Şurasının qətnaməsi əsasında milyardlarla avro pulları donduruldu.

Ümumilikdə Qəzzafinin müxtəlif banklarda 14 milyard avrosunun dondurulduğu bildirilir. 2011-ci ildən bu pulların faizlər hesabına 3-4 milyard da artdığı söylənilir. Bu ilin oktyabr ayında məlumat yayıldı ki, 2013-2017-ci illər ərzində Belçikanın "Euroclear Bank" adlı bankından Liviyanın eks-diktatorunun bank hesablarındakı 16.1 milyard avro vəsaitin 10 milyard dolları yoxa çıxıb. Belçika mətbuatının yazdığına əsasən, 2013-cü il noyabrın 29-da həmin hesablarda 16.1 milyard avro var idi. Pullar "Libyan İnvestment Authority" və "Libyan Foreign İnvestment Company" adlı şirkətlərə aid 4 bank hesablarında saxlanılırdı. Bu şirkətlər Qəzzafi ailəsi ilə bağlı olub. Lakin 2017-ci ildə Belçika hökuməti hesablarda cəmi 5 milyard avronun qaldığını aşkar edib. Mətbuat yazırdı ki, pulların Qəzzafinin oğlu Seyfəlislam tərəfindən çıxarıldığı ehtimal edilir. Belçika Maliyyə Nazirliyi isə bu məlumatları təkzib etmişdi.

İndi isə bildirilir ki, BMT Təhlükəsizlik Şurasının qətnaməsi depozitlərdən əldə edilən gəlirlərə aid olmadığına görə 8 il ərzində Qəzzafinin pulları 3-5 milyard avro artıb. Amma həmin gəlirləri kimlərsə banklardan çıxarıb. Yəni belə çıxır ki, müxtəlif yollarla Qəzzafinin pulları qaytarılır.

Ekspertlər bildirirlər ki, burada dövlətlərarası münasibətlər və siyasi məsələlər var. Qeyd edilir ki, İranda inqilab Qərb dövlətləri tərəfindən dəstəklənmədiyi üçün pulları vermədilər. Özbəkistanda isə hər hansı bir bu kimi səbəb yoxdur.

**"Yeni Müsavat"a danışan politoloq Qabil Hüseynli bildirib ki, bu prosesdə əsas məsələ odur ki, vaxt udmaqla pulların geriyə qaytarılmasını mümkünsüz etsinlər:**

"Beynəlxalq hüquqda öhdəlik var ki, banka qoyulmuş pullar sahibinə qaytarılmalıdır. Eləcə də İsveçrə banklarında xüsusi məxfilik məsələsi də var. Ancaq dövlət, müəyyən kriminal keçmişə malik olan adamlar haqqında məlumat toplayan zaman bank buna müsbət cavab verməlidir. Hazırda Özbəkistanda Kərimov rejiminə qarşı ciddi mübarizə elan edilib. Ölkədə ədalətin bərpa edilməsi istiqamətində siyasi xətt həyata keçirilir. Kərimov və onun nəslinə aid olan oğurlanmış pulların geri qaytarılması Özbəkistanın əsas siyasətlərindən biridir. Bu işdə Kərimovun qızının pulları daha çox məbləğ təşkil edir. Onun pulları təkcə İsveçrə bankında deyil, Amerika, Avropa banklarında da ola bilər. Pulun qaytarılması üçün ciddi arqumentlər olmalıdır. Yəni bilinməlidir ki, pul korrupsiya, rüşvətxorluq və digər bu kimi qeyri-qanuni yollarla qazanılıb. Hesab edirəm ki, Özbəkistan bunun üçün lazımi hüquqi şərtləri hazırlayıb, pulları geri qaytaracaq. Liviyada qeyri-sabitlik olsa da, orada müəyyən qüvvələrin qüvvətlənməsi xatirinə Qəzzafinin pullarının bir hissəsi geriyə qaytarıldı. İranla isə nüvə razılaşması imzalanandan sonra İran şahının da pullarının bir hissəsi geri qaytarıldı. Yəni pulların qaytarılması ilə bağlı təcrübə var. Burada əsas diqqət ona yönəlir ki, ölkədə sabit siyasi xətt yürüdülsün. Həmin pulların xalqın rifahına xərclənməsinə şərait yaradılsın. Çünki Amerika İrana 25 milyard dollar qaytardı, ancaq bu pulların hara xərclənməsi bilinmir. Ona görə də Qərb pulların geriyə qaytarılması məsələsində çox ehtiyatlıdır. Qorxur ki, pullar geri qayıdandan sonra yenə də müxtəlif yollarla hakimi rejim tərəfindən mənimsənilsin".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Dövriyyədən çıxarılan 500-lük avroların taleyi necə olacaq?

## Əkrəm Həsənov: "Avropa Mərkəzi Bankı istənilən zaman əllərdə olan bu əsginasları qəbul edəcək və dəyişəcək"

**Avrozonada yanvarın 26-dan etibarən 500 avroluq əsginaslar tədavüldən çıxarılacaq. Avropa Birliyinə daxil olan 17 ölkə belə qərar qəbul edib. Almaniya və Avstriyada isə bu pul vahidi aprelin 26-na qədər dövriyyədə olacaq.**



Araşdırmaçılar ümid edir ki, 500 avronun ləğvi Avropada oğurluq pulların yuyulması və terrorun maliyyələşdirilməsi kimi halların qarşısına sədd çəkəcək. Bu dəyişiklik səbəbilə Azərbaycanda da 500 avroluq əsginaslara sahib olan vətəndaşların əllərindəki pulu dəyişməsi tövsiyə olunur.

Bəs görəsən, Azərbaycan vətəndaşları əllərində olan 500 avronu necə dəyişə bilərlər? Yerli banklar , o cümlədən Mərkəzi Bank bu xəbərin ardıncan sözügedən əsginasları qəbul edəcəklərmi? Mərkəzi Bank özünün valyuta ehtiyatlarına daxil olan əsginaslarla nə edəcək?

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov bildirdi ki, bu pulların Avropa Bankında dəyişdirilməsi üçün zaman məhdudiyyəti yoxdur:** "Uzun müddət idi ki, 500 avroluq əsginasların dövriyyədən çıxacağı ilə bağlı müzakirələr gedirdi. Avropa Bankı daha öncə də elan etmişdi ki, bu əsginaslar dövriyyədən çıxacaq. Buna görə də, Azərbaycanda banklar çox zaman 500 avroluq əsginası qəbul etmir, bunun problemli olduğunu deyirdilər. Bu əsginasları ancaq Avropaya gedərkən xərcləyə bilirdik. Avropada bu əsginasların dövriyyədən çıxarılması o demək deyil ki, insanlar əllərindəki 500 avroluqları dəyişdirə bilməyəcək. Avropa Mərkəzi Bankı istənilən zaman bu əsginasları qəbul edəcək və dəyişəcək. Ancaq bu pulla ödəniş etmək mümkün olmayacaq. İstənilən halda bu pul batmır, itirilmiş vəsait hesab edilmir".

**Bu əsginasların Azərbaycanda dəyişdirilməsinə gəlincə, Əkrəm Həsənov bunun mümkünlüyünü istisna etmədi:** "Azərbaycanda bundan əvvəl də banklar bu əsginasları müəyyən şərtlərlə qəbul edirdilər. Yəni 500 avronu məzənnəsindən daha ucuz alırdılar, onun dəyişdirilməsi ilə bağlı çəkəcəkləri xərci də üzərində gəlirdilər. Çünki banklar da gərək həmin pulu aparıb Avropa bankında dəyişdirsinlər. Bu da əlavə xərc deməkdir. Hazırda hansısa vətəndaşın əlində 500 avroluq əsginas varsa, banka müraciət edə bilər. Lakin çox güman ki, banklar daha ucuz alacaqlar".

**Mərkəzi Bankın avroda saxlanılan ehtiyatları ilə bağlı danışan ekspert bu əsginaslarda nağd vəsaitlərin Avropa bankında dəyişdirilə biləcəyini vurğuladı:** "Mərkəzi Bankın avroda saxlanılan vəsaitlərinin əksər hissəsi qurumun xarici bank hesablarında saxlanılır. Nağd vəsaitlər arasında bu əsginaslar varsa belə, bu, AMB üçün problem deyil. İstənilən zaman onu Avropa Mərkəzi Bankında dəyişə bilərlər. Bu prosedur üçün zaman məhdudiyyəti yoxdur. Ölkəmizdə də milli valyutada olan köhnə pulları bu gün istənilən zaman Mərkəzi Bankda dəyişmək mümkündür. Pulun tədavüldən çıxması o deməkdir ki, artıq onunla ödəniş və ya alış-veriş etmək mümkün deyil. Ancaq cavabdeh Mərkəzi Bank onu hər zaman qəbul edəcək".

Qeyd edək ki, mövzu ilə bağlı Azərbaycan Mərkəzi Bankına da sorğu göndərilib və bu əsginasların ölkəmizdə dəyişdirilməsi proseduru ilə bağlı qurumdan gələn açıqlamanı da dərc edəcəyik.

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018



**Ermənistan hökuməti "demokratik seçki" oyunu quraraq parlamenti ələ keçirdi. Ancaq müşahidələr onu deməyə əsas verir ki, Nikol Paşinyanın sevinməsi üçün çox tezdir. Belə ki, Ermənistan hökuməti total saxtakarlıqlara getməklə öz rəqiblərinə revanş fürsəti verib.**



# Qarabağ klanından Paşinyan hakimiyyətinə "şifrəli mesaj"

## İşğalçı ölkədə seçkilər bitsə də, gərgin proseslərin başa çatdığını demək çətindir; **politoloq:** "Paşinyan Qarabağ ermənilərini danışıqlara qoşmaq barədə israrından vaz keçməli olacaq..."

N.Paşinyan seçkiöncəsi eks-prezident Robert Köçəryanı həbsə atmaqla rəqiblərini neytrallaşdıracağını düşünürdü. Ancaq Ermənistanda baş qaldıran etirazlar Paşinyanın qabaqlayıcı tədbirlərinin əks-effekt verəcəyini deməyə imkan yaradır. Bu gündən - dekabrın 11-dən etibarən Ermənistanda kütləvi aksiyalar başlayacaq. Məlumata görə, həmin gün ölkənin ikinci prezidenti Robert Köçəryanın həbsdən azad olunması tələbi ilə piket və mitinqlərin keçirilməsi qərarının veriləcəyi gözlənilir.

Artıq "Prezidentə azadlıq!" təşəbbüs qrupu bununla bağlı bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, mövcud hakimiyyət konstitusiyanı və Ermənistan qanunlarını kobud şəkildə pozub. Təşəbbüs qrupu hakimiyyətin məhkəməyə təzyiq etdiyini, ermənilərin milli maraqlarına zidd Dağlıq Qarabağı müdafiə komitəsinin sədri, "artsax qəhrəmanı", "Dağlıq Qarabağın birinci və Ermənistanın ikinci prezidenti"ni həbs etdiyini bildirib.

"Biz, Ermənistanın bir qrup vətəndaşı baş verənləri antikonstitusion cinayət kimi qiymətləndirərək, bu dəhşətli qanunsuzluqlara özümüzün həlledici səsimizi qaldırmağa hazırlaşırıq" - bəyanatda deyilir. Təşəbbüskarlar mübarizənin mitinq mərhələsini elan etdiklərini bildirərək, hər bir vətəndaşı onlara qoşulmağa çağırıblar. "Piket və mitinq günü 11 dekabrdan başlayacaq. Bizimlə birləşin!" - deyə bəyanatda qeyd edilir. Göründüyü kimi, "Qarabağ klanı" N.Paşinyan hökumətinə savaş elan edib. Qarşıdakı günlərdə siyasi hərarətin güclənəcəyi şübhə doğurmur.

Beləliklə, N.Paşinyan təkcə seçki saxtakarlıqlarına etiraz edən kütlənin, siyasi partiyaların deyil, həm də 2008-ci il hadisələrinə görə cəzalandırmağa çalışdığı qüvvələrin etirazları ilə üzbəüz qalıb. Ötən gün İrəvanda yaşanan kuryoz hadisə Ermənistanda geniş əks-səda yaradıb. Belə ki, Robert Köçəryanın həbsindən sonra onun vəkili Ruben Saakyan erməni jurnalistə Azərbaycan dilində cavab verib (Axar.az) Bunu əks etdirən görüntülər sosial şəbəkələrdə yayılıb. Erməni vəkilin jurnalistə "bilmirəm" cavabı marağa səbəb olub. Yayılan video ilə bağlı fikrini bölüşən Anahit Voskanyan adlı istifadəçi bildirib ki, Köçəryanın vəkili Bakıda və ya Gəncədə anadan olub. Erməni jurnalistə vəkilin azərbaycanca cavab verməsi işğalçı ölkədə düşmənçiliyin hansı həddə olduğuna da işarədir. Yəni "siz ermənicə başa düşmürsünüz, azərbaycanca deyirəm".

N.Paşinyanın heykəlinin sındırılması da ona ciddi mesajdır. Belə ki, Ermənistanda naməlum şəxslər Nikol Paşinyanın addımlamasını əks etdirən heykəlin ayağının bir hissəsini qopardıb. Heykəl bu ilin sentyabrında Vanadzor-Gümrü avtomobil yolunda yerləşdirilib. Axar.az bildirir ki, bu heykəl Nikol Paşinyanın yürüşünü simvolizə edib.

Seçkilərdən əvvəl belə bir xəbər yayılmışdı ki, dekabrın 10-dan sonra Qarabağ separatçısı Bako Saakyan da "növbədənkənar seçkilər"ə gedə bilər. Hesab olunur ki, oyuncaq qurumun başçısı bununla həm öz varlığını nümayiş etdirmək, həm də Paşinyana Qarabağdakı "parlament"in "xalqın dəstəyi ilə seçildiyi" mesajını vermək istəyir. Bununla da Saakyan Paşinyanın onu öz namizədi ilə əvəzləməsinə qarşı çıxmaq fikrindədir. Artıq Paşinyanın Xankəndindəki rejimin başçısı olaraq namizədinin də adı çəkilir - Qarabağ canisi Jirayr Səfilyan. Qeyd edək ki, Dağlıq Qarabağ müharibəsində "Şuşa" əlahiddə batalyonuna rəhbərlik etmiş Jirayr Səfilyan hazırkı parlament seçkilərində "Sasna tsrer" Partiyasının seçki qərargahının rəhbəri idi. J.Səfilyan özü də açıqlamalarının birində bildirb ki, parlament seçkilərindən dərhal sonra Dağlıq Qarabağda hakimiyyətin dəyişməsi məsələsi ilə məşğul olacaq.

"Helsinki təşəbbüsü - 92" Dağlıq Qarabağ Komitəsinin koordinatoru, Dağlıq Qarabağ rejiminin rəhbəri Bako Saakyanın yaxın dostu Karen Ohanjanyanın Ermənistanın news.am saytında N.Paşinyanı Qarabağ ermənilərindən üzr istəməyə çağırması və B.Saakyanın işinə qarışmamasını tələb etməsi Qarabağdakı rejimlə Ermənistan hökuməti arasında uçurumun yaranmasına səbəb olub. R.Köçəryanla bərabər Serj Sərkisyanın da cəzalandırılacağı istisna olunmur. Hələ ki Sərkisyanın yaxın ətrafı "təmizlənir", bir gün növbə ona da çatacaq. Bu isə Qarabağ klanını narahat edir. Sərkisyan-Köçəryan cinayətlərində aparıcı fiqur olmuş B.Saakyan erməni diasporuna və xaricdəki havadarlarına ümid edir. Onun həmsədr ölkələrə səfəri də pul yığmaqdan çox, siyasi dəstək almağa hesablanmışdı. Təsadüfi deyil ki, bu səfərlərin yekununda Saakyanın adamları Paşinyana qarşı sərt bəyanatlar verdilər. 30 il əvvəl birləşməklə bağlı şüarlar səsləndirən Qarabağ erməniləri ilə Ermənistan hakimiyyəti indi müharibə vəziyyətindədir.

Təbii ki, belə bir durum Azərbaycan üçün şans yaradır. Üstəlik, Ermənistanda seçicilərin heç yarısının da seçkilərə getməməsi Paşinyana etimadsızlıqdır. 10 dekabrda isə Qarabağın baş separatçısı qondarma qurumda keçirilən "müstəqillik referendumu və konstitusiyanın qəbulu" ilə bağlı təbrik mətnini yayıb. Oyuncaq qurumun başçısı dolayısı ilə Paşinyana meydan oxuyur. Əslində bu, Qarabağ klanından Paşinyan hakimiyyətinə "şifrəli mesaj"dır.

**Politoloq Şahin Cəfərli "Yeni Müsavat"a bildirdi ki, ermənilər əksinqilabçı qüvvələrə etimad göstərmədilər və seçkilərin əsas siyasi nəticəsi budur:** "Serj Sərkisyanın Respublika Partiyası 4,7% (59 min 59) səs alaraq, gözlənildiyi kimi, parlamentə keçə bilmədi. Sübut olundu ki, Qarabağ klanının siyasətdəki təmsilçisi olan bu partiyanın cəmiyyətdə dayaqları çox zəifdir və o, arxasında dövlət gücü olmadan uğur qazana bilməz. Digər önəmli nəticə aqressiv erməni millətçiliyinin qocaman təmsilçisi "Daşnaksutyun"un cəmi 3,89% (48 min 811) səs alaraq parlamentdən kənarda qalmasıdır. Daşnaklar uzun illərdir cinayətkar Köçəryan-Sərkisyan rejiminin əlaltısı, cib müxalifəti kimi fəaliyyət göstərirdi və xalq bunu onlara bağışlamadı. Sonda qeyd edim ki, Paşinyanın erkən seçkilərin mümkün qədər tez keçirilməsinə nail olması çox ağıllı addım idi. Çünki vaxt ötdükcə, inqilabın eyforiyası bitəcək və obyektiv səbəblər (sosial-iqtisadi problemlər), eləcə də daxili və xarici basqıların artması səbəbindən Paşinyanın reytinqində eroziya başlayacaq, beləliklə, əksinqilabi revanş üçün münbit zəmin yaranacaqdı. Zatən dünənki (srağagünkü-red.) seçkidə "Mənim addımım" bloku sentyabrda İrəvan meriyasına keçirilən seçkilərlə müqayisədə aşağı nəticə göstərdi və bu trend davam edəcəkdi. Nikol Paşinyan bunu anlayaraq bizdə Elçibəyin və komandasının 1992-ci ildə yol verdiyi ölümcül səhvi təkrarlamadı. O, artıq qarşıdakı 5 ildə istədiyi islahatları həyata keçirmək üçün güclü parlament dəstəyinə malikdir".

**Ş.Cəfərli hesab edir ki, qələbəyə baxmayaraq, Nikol Paşinyanı qarşıda çox çətin dövr gözləyir:** "Seçki nəticəsində inqilabi eyforiya mərhələsi yekunlaşmış və yeni səhifə açılmış oldu. İndi yeni hökumət başçısı ölkəsinin acı reallıqları ilə üz-üzə qalacaq. Xalq ilk növbədə ağır sosial-iqtisadi problemlərin həllini, yoxsulluğun aradan qaldırılmasını, rifah səviyyəsinin yüksəlməsini gözləyəcək. Qısa müddətdə bu sahələrdə irəliləyiş əldə etmək mümkün deyil. Paşinyan üçün digər problem bürokratik aparatın yenilənməsi zərurətidir, çünki hazırkı dövlət aparatında köhnə rejimin nümayəndələri aparıcı mövqelər tutmağa davam edir. Sabotaj təhlükəsi real olduğu üçün Paşinyan həmin məmurları güvəndiyi kadrlarla əvəz etməlidir. Bu, kifayət qədər çətin prosesdir, çünki həm məhsuldar və dinamik yeni komanda yaratmağa ehtiyac var, həm də dövlət aparatında kütləvi təmizləmələr narazıların sayını artıra bilər".

**Politoloq "Mənim addımım" blokunun lazımi kadr potensialına sahib olduğuna inanmır. Onun fikrincə, yəqin ki, onlar xaricdəki erməni diasporasının bu sahədə imkanlarından yararlanmağa cəhd göstərəcəklər. Ş.Cəfərli deyir ki, xarici siyasət Paşinyan üçün başqa bir sınaq olacaq:** "Rusiya ilə münasibətlərdə problemlər və anlaşılmazlıqlar var. Moskva Paşinyana güvənmir. Sirr deyil ki, Moskva Ermənistan daxili siyasətində mühüm faktor olaraq qalır. Paşinyan daxildə nəzərdə tutduğu islahatları və dəyişiklikləri maneəsiz həyata keçirə bilmək üçün Rusiya ilə münasibətləri qarşılıqlı anlaşma şəraitində qurmaq zorundadır, əks halda, onun üçün problemlər yarana bilər. Seçki kampaniyası zamanı gördük ki, Respublika Partiyası Rusiya kartını oynamağa başlayıb, onlar Paşinyanı ən yaxın müttəfiqlə münasibətləri korlamaqda ittiham edir. Rusiya faktoru Paşinyanın hakimiyyəti üçün təhlükə mənbəyinə çevrilə bilər, bu səbəblə o, xarici siyasətdə çox diqqətli olmağa məcburdur".

**Bütün bunların Qarabağla bağlı nələr vəd etdiyinə gəldikdə, politoloq bunları bildirdi:** "Şübhəsiz ki, mühüm məsələ Dağlıq Qarabağ münaqişəsinin həlli prosesidir. 2019-cu ildə danışıqlar prosesi yenidən başlayacaq və yəqin ki, həmsədrlər Ermənistanın baş naziri ilə Azərbaycan prezidentinin görüşlərini təşkil edəcəklər. Böyük ehtimalla Paşinyan danışıqlar prosesinə Dağlıq Qarabağ ermənilərinin qoşulması barədə israrından vaz keçməli olacaq, bu isə müxalifətin əlinə bəhanə verəcək ki, onu öz mövqeyini qoruya bilməməkdə və geri çəkilməkdə ittiham etsin. Aydındır ki, iqtidardan uzaqlaşdırılmış köhnə komanda və klan Qarabağ kartından fəal şəkildə istifadə edərək Paşinyanı vurmağa çalışacaq. Bir sözlə, seçkilərdən sonra Nikol Paşinyanın siyasi karyerasında ən mürəkkəb dövrün başlayacağını söyləyə bilərik".

**Ermənistanda çox narahatdırlar ki, Paşinyan hökuməti ilə Qarabağ klanı arasında savaş başlasa və KTMT-dən də hər hansı dəstək verilməsə, Azərbaycan işğalçıya sarsıdıcı zərbə vura bilər. Üstəlik, Rusiya aprel müharibəsində olduğu kimi, Ermənistanda baş verənləri, sadəcə, izləyir və hər hansı reaksiya vermir. Proseslər Ermənistan üçün yaxşı perspektivlər vəd etmir...**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018

# İsveçdə Yəmən danışıqları - müharibə və aclığa son qoymaq üçün son şans

## Səudiyyə Ərəbistanı, BƏƏ və İranın dəvət edilmədiyi danışıqlar nə vəd edir?

**BMT-nin təşkilatçılığı ilə ötən həftə İsveçdə başlayan Yəmən sülh danışıqları davam edir. Danışıqlar hazırda hakimiyyətə nəzarət edən husilərin Ənsarullah təşkilatının təmsilçiləri ilə Səudiyyə Ərəbistanında mühacirətdə olan devrilmiş prezident Mansur Hadi hökuməti arasında keçirilir.**

M.Hadi hökumətini təmsil edən heyətin təmsilçisi Həmzə Kamali bildirib ki, bu həftə danışıqlarda nəticə əldə edə bilərlər. O deyib ki, danışıqlar Yəməndəki humanitar böhran, həbsdə saxlanılan şəxslərin taleyi, humanitar yardımların böhran nöqtələrinə çatdırılmasına imkan verilməsi, Taiz şəhərində blokadanın ləğv olunması, həmçinin Səna şəhər beynəlxalq hava limanının yenidən açılması kimi mövzular üzərində aparılır. O deyib ki, artıq hər iki tərəf bütün əsirlərin azad edilməsi mövzusunda anlaşıb. Həftənin birinci günü əsirlərin siyahısı dəqiqləşdiriləcək.

Hazırkı mövcud Səna hökuməti (Ənsarullah) təmsilçisi İbrahim Deyləmi isə bildirib ki, bu günə qədər yalnız əsirlərin azad edilməsi mövzusunda anlaşma əldə olunub, digər məsələlərdə razılaşma yoxdur. Onun sözlərinə görə, danışıqların əsas mövzusu tərəflər arasında qarşılıqlı olaraq etimadın əldə olunmasıdır. Həmçinin Deyləmi bildirib ki, bu günə qədər əsirlərin azad edilməsi, siyasi və iqtisadi münaqişənin bir-birindən ayrılması və Səna hava limanının açılması mövzusu müzakirə olunub.

Ənsarullah hökumətinin danışıq heyətinin rəhbəri Məhəmməd Əbdüssalam Səna limanının bağlanmasına müharibə cinayəti adlandırıb. Əbdüssalam əsas hədəflərinin keçid anlaşmasının əldə olunmasıdır. Eyni zamanda əlavə edib ki. əgər müzakirələr nəticəsiz qalarsa, o zaman müharibə davam edəcək.

Qeyd edək ki, 2014-cü ilin payızında husilərin Sənaya hücum edərək prezident Hadini devirdikdən sonra başlayan münaqişə 2015-ci ilin 26 martında Səudiyyə Ərəbistanının rəhbərlik etdiyi ərəb hərbi koalisiyasının Yəmənə hücumu ilə ağır müharibəyə çevrilmişdi. Hazırda da tərəflər arasında savaş davam edir.



Yəməndə atəşkəs əldə olunması üçün 2016-cı ildə İsveçrədə danışıqlar başlasa da, əldə olunan atəşkəs razılaşması pozulduğu üçün danışıqlar yarımçıq qalmışdı. İndi isə Yəməndə humanitar böhran daha da dərinləşib, əhalinin yarıdan çoxu aclıq çəkir, xəstəlik səbəbindən minlərlə uşaq ölüb. Yəməndə humanitar böhran dözülməz həddə çatıb, dinc əhalinin bombalanması nəticəsində hər gün onlarla dinc insan ölür.

Ancaq dünya ölkələri, xüsusən də ABŞ və onun müttəfiqləri Yəməndəki husilərin İran tərəfindən dəstəkləndiyini əsas gətirərək Səudiyyə Ərəbistanına açıq şəkildə dəstək verirdi. Münaqişənin əsas səbəbkarı olaraq İran və onun dəstəklədiyi qüvvələr, yeni husilər göstərilirdi. Ancaq bu ilin oktyabrında situasiya dəyişdi. Birincisi, Yəməndə humanitar böhran daha da dərinləşdi, aclıqdan və dərman çatışmazlığından ölən yəmənli uşaqların şəkilləri dünya mediasında, sosial şəbəkələrdə yayıldı. Digər tərəfdən, Səudiyyə Ərəbistanı təyyarələrinin dinc əhali və ordu ayırmadan yaşayış məntəqələrini bombalaması nəticəsində ölənlərin sayı artıb, vəziyyət fəlakətli həddə çatıb.

Nəhayət, bu ilin payızında Səudiyyə Ərəbistanından olan jurnalist Camal Qaşıqçının İstanbuldakı Ərəbistan konsulluğunda öldürülməsindən sonra dünya ictimai rəyi "Yəməni də xatırlayıb". Səudiyyə Ərəbistanı hakimiyyəti Yəməndəki dinc insan ölümlərinə görə cavabdeh olaraq göstərilib.

Digər tərəfdən, Qaşıqçı olayına görə dünya ictimaiyyətinin Səudiyyə Ərəbistanı hakimiyyətini və onu açıq şəkildə müdafiə edən ABŞ hökumətini tənqid etməyə başlayıb. Məhz bu tənqidlərdən sonra ilk dəfə dövlət katibi Maykl Pompeo yazılı açıqlama yayaraq Səudiyyə Ərəbistanı hökumətini Yəməndə atəşkəs elan etməyə çağırıb. Bunun ardınca ABŞ Senatı Yəməndə savaşan qüvvələrə silah verilməsini qadağan edən qanun qəbul edib. Məhz bundan sonra Yəmən ətrafında situasiya dəyişib.

Yəməndə vəziyyətin dözülməz həddə çatması nəticəsində artıq dünya birliyi işə qarışıb, BMT-nin təşkilatçılığı ilə İsveçin paytaxtında növbəti danışıqlar prosesi başlayıb. Danışıqlar paytaxt Stokholm yaxınlığında Rimbo qəsəbəsində keçirilir. Bu danışıqlar Yəməndə atəşkəsin əldə olunması, ümumiyyətlə, müharibəyə son qoyulması baxımından həlledici sayılır.

Yəməndə 2015-ci il martın 26-da başlayan Səudiyyə Ərəbistanı hərbi müdaxiləsindən sonra 55 min insan ölüb. Onlardan 7 mini mülki əhalidir. Hazırda 22 milyon əhalisi olan Yəməndə 15 milyon insan qida əldə etməkdə çətinlik çəkir. 80 min nəfər isə aclıq çəkir.

İsveçdə başlayan Yəmən danışıqlarının əsas təşkilatçısı BMT-nin Yəmən üzrə xüsusi təmsilçisi Qriffitsdir. BMT təmsilçisi bildirib ki, danışıqların ilkin mərhələdə əsas hədəf atəşkəsin əldə olunmasıdır. Atəşkəsin ilk mərhələsi ağır döyüşlərin davam etdiyi Hudeydə liman şəhərində döyüşlərin dayandırılmasıdır. Hudeydədə ağır döyüşlər bu ilin yazından başlayıb. Husilərin əlində olan sonuncu liman şəhəri Hudeydə husilər bölgəsinin yeganə dəniz qapısıdır. Koalisiya ordusu Hudeydəni ələ keçirə bilməsə də, qanlı savaş nəticəsində 150 min insan şəhərdə çıxılmaz vəziyyətdədir.

Artıq əsirlərin dəyişdirilməsi istiqamətində razılıq əldə olunub. BBC-nin məlumatına görə, ilkin anlaşmaya əsasən 1500-2000 nəfər arası Hadi tərəfdarı, 1000-1500 nəfər arası husi döyüşçüsü qarşılıqlı olaraq azad ediləcək.

Maraqlıdır ki, İsveçdəki Yəmən danışıqlarında, sadəcə, savaşan iki tərəf, yeni Hadi hökuməti və Husi hökuməti iştirak edir. Ölkənin cənubunda hələ də güclü olan keçmiş Cənubi Yəmən tərəfdarları olan qüvvələr, eləcə də ölkənin cənub şərq hissəsində böyük ərazilərə nəzarət edən "Yəmən əl-Qaidəsi" danışıqlara dəvət olunmayıb.

Bundan başqa, Yəməndə faktiki olaraq savaşan və mandat müharibəsi aparan İran, Səudiyyə Ərəbistanı və BƏƏ İsveç danışıqlarına dəvət olunmayıb. Ancaq aydın məsələdir ki, hər 3 ölkənin Yəməndə savaşan tərəflərə güclü təsiri var. Üstəlik, ölkənin cənubundan faktiki olaraq nəzarət BƏƏ və Səudiyyə Ərəbistanı silahlı qüvvələrinə məxsusdur. Bu da İsveç danışıqlarını daha da mürəkkəbləşdirir. Çünki qeyd olunan arxa güclər razılaşma əldə etməsə, köklü anlaşmanın əldə olunması real görünmür.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Aksiyalar Yeni ildə Parisə üz tutanların sayına təsir edəcək?

## **Ekspert:** "Azərbaycandan Parisə getmək istəyənlərin sayında dəyişiklik yoxdur"

**Fransada yanacaq vergisinin artırılmasına etiraz edənlər hələ də sakitləşməyiblər. Ötən həftə aksiyaçılar prezident sarayını hədəfə alsalar da, polis onlara mane olub və gözyaşardıcı qazdan istifadə edib.**

Ölkədə vəziyyətin getdikcə daha da gərginləşdiyini nəzərə alaraq baş nazir E.Filipin və daxili işlər naziri K.Kastanerin iştirakı ilə böhran iclası çağırılıb.

Paris ətrafındakı qəsəbələrdən, eləcə də ölkənin əyalətlərindən gələn aksiyaçılar paytaxt ətrafındakı dairəvi yolları bağlamağa cəhd ediblər.

Aksiyaçıların polis və texnika ilə barrikadaya alınmış küçələri keçmək cəhdlərinin qarşısı alınıb. Yelisey Sarayı ətrafındakı kiçik küçələrdə aksiyaçıların polis tərəfindən mühasirəyə alınaraq saxlanılması vəziyyəti daha da gərginləşdirir. Aksiyaçılar dövlət himnini oxuyur və "Makron, istefa!" şüarlarını səsləndirirlər. Ölkə prezidentinin etiraz aksiyası qarşısında susmasından narazılıq bildirilib.



Dindirilən aksiyaçıların sayı 492-yə çatıb ki, onlardan 211-i müvəqqəti saxlama məntəqələrinə yerləşdirilib.

Hər il Yeni il ərəfəsində Parisə üz tutanların sayında artım olur. Dünyanın müxtəlif yerlərindən gələn turistlər Eyfel qülləsinin ətrafına toplaşaraq, Yeni ili qarşılayırlar. Ötən il məlumat yayılmışdı ki, Paris son 10 ildə turistlərin sayına görə rekord vurub. Belə ki, məlumatlara görə, turist sayı 2016-cı ilə nisbətən 1,5 milyona qədər artmışdı. Bildirilirdi ki, Parisə gələnlərin əksəriyyəti ABŞ turistləridir. Statistika məlum olmasa da, Azərbaycandan da Fransaya Yeni ili qarşılamaq üçün gedənlər olur. Nəzərə alaq ki, bu il aksiyalar səbəbindən Parisdə ab-hava başqadır. Bəs bu hal Parisə gedənlərin sayına təsir edəcəkmi?

**Turizm üzrə ekspert Elxan Vəliyev "Yeni Müsavat"a bildirib ki, əslində turistlər turpaketi alan zaman bunu konkret olaraq bir şəhər üçün almırlar:** "Məlum olduğu kimi, turpaketləri öncədən əldə olunur. Müştərilər ən azından bir ay öncədən müraciət edərək, turpaket alırlar. Məsələn, Yeni ili hansısa ölkədə keçirmək istəyən şəxs bayrama 20 gün qalmışa qədər sifarişini edir, məsələ bitir. Müştərilərin biletləri, rezervləri qaytarmaq istəkləri olarsa, itki ilə qarşılaşırlar. Bunu sığortalayacaq hər hansı bir qurum yoxdur. Eləcə də deyim ki, qrup turları təkcə Parisə olmur. Sadəcə olaraq, Avropa qrup turları olur və müştəriləri avtobus vasitəsilə gəzdirirlər. Mümkün olar ki, əgər Fransada təhlükəli vəziyyət yaranarsa, Paris istiqamətini ləğv edərlər. Hazırda biletlər öncədən satılıb. Ötən il necə gedilirdisə, bu il də eyni sayda gedənlər var. Yeni azalma hiss olunmur. Avropa vizaları öncədən alanlar rahat şəkildə gedirlər. Lakin yeni viza alanlar gecikə bilərlər. Hansısa təhlükəli vəziyyət yaranarsa, yəqin turizm şirkəti bunu nəzərə alacaq və hərəkət istiqamətini də buna uyğun quracaq".

**Ekspert bildirib ki, Azərbaycandan Parisə birbaşa uçuşlar var və getmək istəyənlər çətinlik çəkmirlər:** "Avropaya turizm məqsədilə üz tutan insanlar daha çox Macarıstan üzərindən Budapeştə gedib, qrup turlarına qoşulurlar. Belə qrup turları müxtəlif tarixlərdə olur. Məsələn, ayın 15-i, 18-i var. Bu turlar vasitəsilə təkcə bir ölkəni deyil, yaxın bölgələri gəzə bilirlər. İtaliya, Fransa, Slovakiya, Polşa kimi ölkələrə turlar mövcuddur. Eləcə də "Parisə 3 addım" adlanan turlar da mövcuddur. Lakin bu, o demək deyil ki, 7 günün 4 gününü Parisdə qalacaqsan. Hər şəhərin mərkəzində bir gün qalmaqla, 4-5 ölkəni gəzirlər. Adətən qrup turlarında bu kimi problemlər çıxmır. İndidən artıq getmək istəyənlər turu alıblar. Qaytarmaq istəyən isə hələ ki yoxdur. Türkiyədə məlum hadisələr olan zaman uçuşlar, sadəcə olaraq, bir neçə saat dayandırıldı. Sonradan isə proses bərpa olundu. Hazırda kimsə Fransaya getməyi planlayırsa, o, fikrindən daşınıb, getməyə bilər. Lakin öncədən bu turları alanlar, adətən belə hallarda geri qaytarmırlar. Çünki bilirlər ki, xeyli xərcə düşəcəklər. Deyə bilərlər ki, Fransa da sakitlikdir, nə üçün geri qaytarırsız? Bir var ki, futbola gedirsən və öncədən rezerv edirsən. Futbol keçirilmirsə, bileti qaytara bilirlər. Ancaq indiki halda şirkət müştəriyə deyəcək ki, Parisdə məsələ sakitləşib. Hansı səbəbdən geri qaytarırsan? Yəni bu kimi məsələlər var. Deyim ki, Avropadakı sistem Türkiyədən fərqlidir. Türkiyədə hotellərin qiyməti standartdır. Avropada isə yerlər məhdudlaşdıqca, qiymətlər qaldırılır. Bu cür sistem yalnız Avropadadır. Necə ki, aviabiletlərdə kampaniya var, orada da belədir, qiymətlər dəyişir. Bu gün 100 avroya tapdığın yer, sabah 150 avroya ola bilir. Sistemlərin də hamısı qaytarılmayandır. Özü də vaxta az qalıbsa, qaytarmaq daha da çətinləşir və deyərdim ki, mümkün olmur".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018

# Azərbaycan bazarında armatur qalmaqalının pərdəarxası

## Ekspert: "Keyfiyyət göstəricilərinin aşağı olması sənədlə, laborator analizlərlə sübut olunmalıdır"

**Son zamanlar ölkə mətbuatında xaricdən gətirilən armaturların keyfiyyətsiz olması ilə bağlı məlumatlar yayılır. Bildirilir ki, bu armaturlar keyfiyyətsiz olmaqla yanaşı, həm də ucuzdur. Nəticədə isə alıcılar ucuz məhsulları almağa üstünlük verdikləri üçün yerli istehsalçılar çətin vəziyyətə düşüblər.**

"Yeni Müsavat" olaraq araşdırmamız nəticəsində öyrəndik ki, hazırda bazarda doğrudan da İran armaturlarının qiyməti yerli istehsaldan ucuzdur. Lakin bu, həmin məhsulun heç də keyfiyyətsiz olduğunu isbatlamır. **Armatur alqı-satqısı ilə məşğul olan Nicat Məmmədov qəzetimizə bildirdi ki, qiymətlərdə fərq var:**

""Bakı Steel Company"nin materialı 90 qəpik, sex malı 65 qəpik, İrandan gətirilən material isə 85 qəpikdir. Marka olaraq İran armaturu Azərbaycan materialından güclüdür. Yəni İrandan gətirilən armatur 500 markadır, Azərbaycan materialı isə 450 markadır. Ancaq ucuzluğunun səbəbinin nədən qaynaqlandığını söyləyə bilmərik. İnsanlar daha çox sex malına üstünlük verirlər. Deyirlər ki, armatur-armaturdur, nə fərqi var. "Baku Steel Company" isə qiymətləri çox baha qoyduğu üçün müştərilər bu materialı almaq istəmirlər. Burada başqa bir məsələ yoxdur. Keyfiyyət məsələsi doğru deyil. İllərdir ki, Bakıda Rusiya, İran armaturları satılır. Hələ indiyə qədər kimsə bu materialların keyfiyyətindən şikayətlənməyib. Hələ bu materiallar xaricdən gətirilir və bunların gömrük, vergi xərcləri olur. Bununla belə, ucuzdursa, deməli, problemi ölkədəki istehsalda axtarmaq lazımdır".



**"Yeni Müsavat"a danışan Natiq Cəfərli bildirib ki, keyfiyyətlə bağlı yazılanların sənədləşmiş sübutu yoxdur:** "Deməli, məhsulların Azərbaycana gətirilməsində keyfiyyət sertifikatı ilə bağlı sənədlər normal səviyyədədir ki, gömrükdən bu məhsulları ölkəyə keçirmək mümkün olur. Başqa cür olsaydı, gömrükdən məhsulları ölkəyə keçirmək mümkün olmazdı. Yaxud da belə çıxır ki, gömrükdə ciddi korrupsiya kanalı var ki, ölkəyə belə bir material buraxılır. Ancaq son zamanlar gömrük orqanlarında aparılan islahatlar deməyə əsas verir ki, rəsmiləşdirmələr kifayət qədər ciddiləşib. Yəni keyfiyyətlə bağlı yazılanların hələ ki sənədləşmiş sübutu yoxdur. Nə mətbuatda, nə bu işlə məşğul olanlar arasında keyfiyyətlə bağlı məsələ sübut olunmayıb. Qiymətlərə gəlincə isə burada da məsələ müəmmalıdır. Təbii ki, "Baku Steel Company" yerli şirkətdir və burada yerli xammaldan istifadə olunur. Şirkətin əslində özünün keyfiyyətli məhsul istehsal etməsi məsələsi ilə bağlı da problemlər yaşanıb. Çünki istehsalda təkrar xammal mühüm rol oynayır. Bu təkrar xammal isə Bakının bütün hər yerindən toplanan, paslanmış, korroziyaya uğrayaraq metal keyfiyyəti zəifləmiş məhsullardır. Çox zaman da armaturlar bu kimi məhsulların təkrar emalından istehsal olunur. Bütün bunları nəzərə aldıqda söyləyə bilərik ki, əslində istehsal edilən armaturun maya dəyəri çox aşağı olmalıdır. İlkin xammaldan, daş filizindən istifadə edilsəydi, qiymətlərin baha olması anlaşılardı. Çünki burada maya dəyəri yüksək olacaqdı. Eyni zamanda belə olardısa, bunun daşınma xərcləri də yüksək olardı. Təkrar emalda isə daha ucuz başa gəlir. Bu məntiqlə "Baku Steel Company"nin məhsullarının qiyməti daha aşağı olmalı idi. Sadəcə olaraq, Azərbaycanda bu sahədə ciddi rəqabət mövcud olmadığı üçün bazarın böyük bir hissəsinə qeyd etdiyimiz şirkət diktə edir. Nəticədə onlar həm də qiyməti də diktə etməyə çalışırlar ki, bazarda böyük üstünlüyə malik olsunlar. Bütün bunların nəticəsində istənilən ölkədən gətirilən armaturla bağlı belə bir iddia səsləndirilir ki, həmin məhsulların keyfiyyət göstəriciləri daha aşağıdır. Əslində keyfiyyət göstəricilərinin aşağı olması, sənədlə, laborator analizlərlə sübut olunmalıdır".

**Ekspert bildirib ki, xarici ölkələrdə bu cür hal yaşansaydı, İranın armaturlarını satan dilerlər məhkəməyə müraciət edərdi:**

"Hər bir məhsulun bir maya dəyəri var. Nə qədər İran realı ucuz olsa da, devalvasiya prosesi getsə də son nəticədə hesablamalar dollar üzərindən aparılır. Yəni maya dəyərinin nə qədər aşağı olmasına realın məzənnəsi təsir etmir. Əslində bunun elektrik enerjisi, insan əməyi, xammalı var. Yəni maya dəyəri məhsulun istənilən halda üzərinə gəlir. İstər bunu manatla hesabla, istərsə də realla, dollarla və sairə. Bütün bunların maya dəyərindəki fərqi deyişmir. Ona görə də yeganə bir irad ondan ibarətdir ki, Azərbaycanda manat-dollar münasibətləri sabit olduğu üçün İran məhsullarını bizim ölkədə satmağa üstünlük verir. Nəticədə Azərbaycanda məhsulların dəyərini manatla alıb, sonra onu dollara çevirərək, ölkədən çıxarıblar. Bunu irad kimi bildirmək də gülüncdür. Çünki biznesin qaydaları budur. Bəyəm sərhədləri qapatmalıyıq ki, ölkədən dollar çıxmasın? Bu, biznesin azad şəkildə fəaliyyət göstərməsinə maneə yaradа bilər".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Hökumətləri "atəşə atan" artım qərarları: müxtəlif ölkələrdə fərqli reaksiyalar...

## Natiq Cəfərli: "Vətəndaşların bu cür qərarlara fərqli reaksiyaları siyasi sistemdən doğan fərqlərdir"

**Fransada 2019-cu il yanvarın 1-dən benzinə tətbiq edilən verginin 2,9 faiz, dizelə isə 6,5 faiz artırılacağına qarşı noyabrın 17-dən "sarı jiletlilər"in etiraz aksiyası keçirilir. Hakimiyyət iddia edir ki, bu addım havanın çirklənməsinə qarşı atılır. Hazırda Fransada Aİ-95 markalı benzinin dövlət tərəfindən tənzimlənən qiyməti 1,47 avro, Aİ-98 1,54 avro, dizel isə 1,48 avrodur. Mövcud qiymətlərin gələn il yanvarın 1-dən 2,9 avrosent bahalaşacağı gözlənilirdi. Artıq hökümət qiymət artımı planından imtina edib. Lakin bu addım etirazların səngiməsinə gətirib çıxarmayıb.**



Məlum olduğu kimi, bu cür artım qərarları hökumətləri "atəşə atan" qərarlardır. Belə ki, yanacağın, gediş haqlarının, verginin, gömrük rüsumlarının və ya pensiya yaşının artırılması ilə bağlı hökumətin verdiyi qərarlar bir qayda olaraq, cəmiyyətin kəskin etirazı ilə üzləşir. Bəzən bu etirazlar aksiyaya çevrilir və əhalinin küçələrə axın etməsi ilə nəticələnir. Xüsusən də Avropa ölkələrində etirazlar daha sərt şəkildə baş verir.

Bəs görəsən, baş verəcək bütün bu hadisələri gözə alan hökumətlər hansı səbəblərdən, artıma gedir? Digər tərəfdən, müxtəlif ölkələrdə cəmiyyətin bu qərarlara reaksiyası niyə bu qədər fərqli şəkildə özünü göstərir?

**"Yeni Müsavat"ın suallarını cavablandıran iqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, hər bir ölkədə verilən artım qərarlarının özünün spesifik xüsusiyyətləri var:** "Avropada təqaüd yaşının artırılmasının əsas səbəbi ondan ibarətdir ki, təbii artım çox zəifdir, doğulan uşaqların sayı azdır. Elə ölkələr var ki, əhalisinin az qala 30 faizi təqaüd yaşına çatmışlardan ibarət olur və işləyənlərin sayı daha az olur. Avropa ölkələri məcburi olaraq təqaüd yaşını artırmaqla iş yerlərinin saxlanılmasına və işçi sayı ilə bağlı problem yaşanmamasına çalışırlar. Buna görə təqaüd yaşı artırılır".

**Ekspertin sözlərinə görə, vergilərin artırılmasının da müxtəlif səbəbləri olur:** "Əsas səbəb sosial xərclərin artırılması ilə əlaqədardır. Sosial xərclər artdıqca əlavə vəsaitə ehtiyac olur. Bəzi ölkələr hərbi xərcləri artırır və əlavə vəsaitə ehtiyac yaranır. Buna görə də hökumət vergiləri artırmaq yolunu tutur. Bəzi ölkələr də var ki, resurs iqtisadiyyatına aiddir və təbii resursların qiymətinin azalması onları məcbur edir ki, vergi məcəlləsinə də tez-tez dəyişiklik etsinlər. Rusiya bunun üçün ən yaxşı örnək ola bilər. Son zamanlar bu ölkədə tez- tez vergi və rüsumların artırıldığını görürük. Azərbaycanda da bu istiqamətdə müxtəlif addımlar atılır. Səbəblər hər ölkədə müxtəlifdir. Hökumətlərin əsas məqsədi isə büdcəyə daha çox gəlir gətirmək, daxilolmaları saxlamaq və büdcə xərcləmələrini artırmaq hesabına iqtisadiyyatda dinamik inkişafı təmin etməkdir".

**N. Cəfərlinin fikrincə, ayrı-ayrı cəmiyyətlərdə reaksiyanın fərqli olması siyasi sistemdən asılıdır:** "Ancaq əhalinin də bu məsələlərdə ciddi narahatlıqları olur. Bəzən insanlar ödədikləri vergi müqabilində dövlətdən eyni səviyyəli xidmət almadıqda bu, sosial gərginliyə səbəb olur. Hansı dövlətin vətəndaşlarının bu cür qərarlara necə reaksiya verməsi isə siyasi sistemdən doğan fərqlərdir. Fransa inqilablar ölkəsidir, son 300 ildə orada 5 respublika təsis olunub. Dəfələrlə idarəetmə formatının dəyişməsi məhz xalqdan gələn tələblə olub. Bu, həm də demokratik ənənələrə bağlıdır. Avropa ölkələrində bunun idarəolunma mexanizmi də var. Etirazlar kritik həddə çatarsa, hökumət istefaya gedir, növbədənkənar seçki keçirilir. Seçki sistemi vasitəsilə siyasi elitanın dəyişməsi prosesi baş verir. İnsanları narazı salan liderlər və ya partiyalar siyasi səhnədən getmiş olurlar. Belə bir mexanizm mövcuddur və sosial gərginlik pik həddə çatarsa, bu mexanizm işə düşür. Postsovet məkanında, eləcə də Şərq dövlətlərində isə belə bir seçki mexanizmi yoxdur, ona görə insanların bu yolla hakimiyyəti dəyişmək düşüncəsi də yoxdur. Ona görə də insanlar etiraz aksiyaları ilə nəyəsə nail olacaqlarına əmin deyillər. Etirazların zəif olması ölkədə demokratik sistemin zəif olmasından, hökumətin daha basqıcı siyasət yürütməsindən asılıdır".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# “Bakutel 2018" təşkilatçıları ”Bakcell"ə “Ən yaxşı təqdimat” sertifikatı verdi






**Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti “Bakutel-2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi və Konfransı zamanı ”Ən yaxşı təqdimata" görə xüsusi təşəkkürnamə sertifikatına layiq görülüb.**

Bu ilki sərgidə Bakcell stendinin qonaqları innovasiyalar və ən müasir texnologiyalar, rahat və müasir məhsul və xidmətlər və şirkətin son nailiyyətləri ilə tanış olub, bir çox maraqlı müsabiqə, oyun və hətta lotereyada iştirak etmək şansı qazanıblar.

“Bakutel 2018" zamanı Bakcell Azərbaycanda ilk dəfə olaraq ”5G-yə hazırlıq" adlanan 4.5G texnologiyası üzərindən təmin olunan 600 Mbps mobil sürətini nümayiş etdirib.

Sərgidəki Bakcell stendini ziyarət edən qonaqlar innovasiya və texnologiyalarla yanaşı şirkətin yeni istifadəyə verilmiş “Mənim Bakcellim” mobil tətbiqetməsi ilə tanış olmaq və xüsusi lotereyada iştirak edib dəyərli hədiyyələr qazanmaq imkanı əldə ediblər. Həmçinin, Bakcell stendində gənc yerli developerlər tərəfindən “AppLab” inkubasiya mərkəzinin dəstəyilə yaradılmış 2 yeni layihə - -"Run2Help" və “bilik.az” təqdim olunub. Stendin “Wi-Fi Evinizdə” guşəsində isə sərgi ziyarətçiləri “Bakcell”in yeni təqdim olunmuş Wi-Fi qurğusunun üstünlükləri ilə tanış olub, ölkənin ən sürətli 4G internetindən istifadə etmək və “Virtuall Realliq” proqramında futbol oynamaq imkanı qazanıblar. Bundan əlavə, stendin qonaqları “Ulduzum” loyallıq proqramına aid labirint oyununda iştirak edərək “Ulduzum” tərəfdaşlarından maraqlı hədiyyələr qazanıblar.

“Bakcell”in “Bakutel 2018" sərgisində iştirakı ilə bağlı hazırlanmış videoçarxa burada baxa bilərsiniz: https://youtu.be/8BMNHvH01j4 ttps://youtu.be/8BMNHvH01j4

Unikal, innovativ və maraqlı məzmun sayəsində Bakcell şirkətinin stendi “Ən yaxşı təqdimat”a görə “BakuTel-2018" sərgisinin təşkilatçısı Caspian Event Organizers (CEO) şirkəti tərəfindən xüsusi təşəkkürnamə sertifikatı ilə təltif olunub.

# Bakıda sərxoş vəziyyətdə piyadanı vurub öldürən sürücü tutuldu

**Bakıda sərxoş vəziyyətdə avtomobillə piyadanı vuraraq öldürən şəxs tutulub. “Report” xəbər verir ki, bununla bağlı Bakı Şəhər Baş Polis İdarəsi və şəhər prokurorluğu birgə məlumat yayıb.**



Bildirilib ki, dekabrın 9-da saat 22 radələrində Bakı şəhər sakini, 1985-ci il təvəllüdlü Həsənov Əli Bəhlul oğlu sərxoş vəziyyətdə idarə etdiyi “Mercedes-Benz E 220" markalı, 90-KS-784 dövlət nömrə nişanlı avtomobillə Sabunçu rayonu, Ramana qəsəbəsində hərəkətdə olarkən piyada, 1954-cü il təvəllüdlü Məmmədov Bəhram İsmayıl oğlunu vurub, sonuncu aldığı bədən xəsarətlərindən hadisə yerində ölüb.

Fakta görə rayon polis idarəsinin istintaq şöbəsində Cinayət Məcəlləsinin 263-1.3-cü (sərxoş halda yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

İş üzrə hadisə yerinə və nəqliyyat vasitəsinə baxış keçirilib, müvafiq ekspertizalar, o cümlədən məhkəmə-tibbi və məhkəmə yol-nəqliyyat hadisələri ekspertizası təyin edilib, şahidlərin ifadəsi alınıb və digər zəruri istintaq hərəkətləri yerinə yetirilib.

Ə.Həsənov iş üzrə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib.

Hazırda iş üzrə istintaq davam etdirilir.

## Azərbaycandan Rusiyaya aparılan pomidorlarda tomat güvəsi xəstəliyi aşkar edilib

**Rusiyanın Baytarlıq və Fitosanitar Nəzarət üzrə Federal Xidmətinin əməkdaşları Azərbaycandan bu ölkəyə aparılan pomidorlarda Cənubi Amerika mənşəli tomat güvəsi xəstəliyi aşkar ediblər.**



“Report”un Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, fakt ölkədə ilk dəfə olaraq Tomsk vilayətinin ərazisində qeydə alınıb.

Qurumun məlumatında deyilir ki, Ümumrusiya Bitkilərin Karantini Mərkəzinin Federal Dövlət Büdcə Təşkilatının Tomsk filialının qərarına əsasən, qeyd edilən məhsullarda canlı sürfələr aşkar edilib. Mütəxəssislər bildirib ki, Cənubi Amerika mənşəli tomat güvəsi əsasən pomidorlara yoluxur. Onun sürfələri bitkinin yaşıl hissəsinin yumşaq toxumaları ilə qidalanır, yarpaqları yeyərək sonda ancaq şəffaf qabıq saxlayırlar. Bundan sonra zədələnmiş məhsul satış və istifadə üçün yararsız sayılır.

Qeyd edək ki, 120 kiloqram həcmində belə məhsul bərk məişət tullantıları poliqonunda məhv edilib.

## Balakəndə yolu keçmək istəyən iki qadını maşın vurdu

**Balakəndə yolu keçmək istəyən iki qadını avtomobil vurub.**

“Report”un Şəki-Zaqatala bürosunun məlumatına görə, hadisə günorta saatlarında Balakən şəhər ərazisində baş verib.

Balakən rayon sakini idarə etdiyi “Mitsubishi” markalı minik avtomobili ilə hərəkətdə olarkən yolu keçmək istəyən piyadalar, rayonun Qaravəli kənd sakinləri - 2000-ci il təvəllüdlü Əfsanə Ziyaviddin qızı Qurbanova və Fatimə Ramazan qızı Rəsulovanı vurub. Yaralılar dərhal Balakən Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.

Ə.Qurbanovaya qapalı kəllə-beyn travması və beyin silkələnməsi dioqnozu qoyulub, müalicəsi xəstəxananın reanimasiya şöbəsində, F.Rəsulovanın müalicəsi isə cərrahiyyə şöbəsində aparılır.

Ə.Qurbanova və F.Rəsulovanın yaxın qohum, gəlin-baldız olduğu bildirilir.

**Faktla bağlı araşdırma aparılır.**




## Qohumunu zorlamaqda və şantaj etməkdə ittiham edilən şəxs bəraət aldı

**Qohumunu zorlamaqda ittiham edilən şəxs hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qohumunu zorlamaqda və seksual xarakterli digər zorakılıq hərəkətləri etməkdə ittiham edilən Bakı şəhər sakini, 1980-ci il təvəllüdlü Məftun Bayramovun cinayət işi üzrə məhkəmə iclası başa çatıb. Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən məhkəmə iclasında hökm oxunub. Hökmə əsasən Məftun Bayramov barəsində bəraət hökmü çıxarılıb. Onun qeyd edilən cinayət əməlini törətmədiyi qənaətinə gəlinib.

Məlumata görə, Sumqayıt şəhər sakini, 1996-cı il təvəllüdlü Gülçin Məmmədlinin (ad, soyad şərtidir) köməksiz vəziyyətindən istifadə etməklə qohumu - Bakı şəhər sakini, 1980-ci il təvəllüdlü Məftun Bayramov tərəfindən 2015-ci ilin sentyabrından 2016-cı ilin noyabr ayınadək olan müddətdə mütəmadi olaraq Bakı və Sumqayıt şəhərlərində zorlanması və seksual xarakterli digər zorakılıq hərəkətlərinə məruz qalması faktına görə Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 149.1-ci (zorlama) və 150.1-ci (seksual xarakterli zorakılıq hərəkətləri) maddələri ilə cinayət işi başlanıb.

Bu barədə Bakı Şəhər Prokurorluğundan məlumat verilmişdi. Məlumatda bildirilirdi ki, istintaqla M.Bayramovun çəkdiyi intim əlaqələrini əks etdirən videogörüntü və fotoşəkilləri sosial şəbəkələrdə yayacağı ilə hədələyərək G.Məmmədlidən 1890 manat dəyərində qızıl-zinyət əşyalarını almasında əsaslı şübhələr müəyyən edilib.

M.Bayramov iş üzrə təqsirləndirilən şəxs qismində istintaqa cəlb olunaraq, ona qarşı Cinayət Məcəlləsinin 149.2.5-ci (zorlama, təkrar törədildikdə), 150.2.5-ci (seksual xarakterli zorakılıq hərəkətləri etmə, təkrar törədildikdə) və 182.2.2-ci (hədə-qorxu ilə tələb etmə, təkrar törədildikdə) maddələrilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib.

**İ.MURADOV, Musavat.com**

YENİ MÜSAVAT
N 265 (7154) 11 dekabr 2018

**Qurban Qurbanovun istefa verməsi (və ya istefaya göndərilməsi) xəbərini şənbə günü telefonuma gələn zəngdən bildim. Yazılarımı izləyən həmkarlardan biri "Axır arzuna çatdın, Qurban millidən getdi..." dedi.**

Xəbər mənim üçün qətiyyən gözlənilməz olmadı, çünki hələ Kosovo ilə oyundan sonra bu barədə yüksək səviyyədə müzakirə olduğu barədə bəzi informasiyalar dolaşırdı. Hətta Qurbanın istefa ərizəsi yazdığı barədə də bəzi media strukturlarına feyk xəbər ötürülməsi müşahidə edilirdi. Qurban Qurbanovun özü istefaya getdi və ya heç xoşlamadığım "göndərildi" sözü ilə müşahidə




# Qurban, "Qarabağ" amanatı...

## Qurban Qurbanov məşhur nağıl qəhrəmanı Papa Karl deyildi ki, taxtadan Buratino yonsun, ona əl-ayaq qoysun, nəfəs versin, üstəlik, cibinə qızıl pul qoyub məktəbə (Avropa çempionatına) göndərsin...

olunan müzakirələrin indi əhəmiyyəti varmı?

Kaş istefa verəydi, "mən bu işi məndən daha yaxşı bacara bilənə buraxıram" deyəydi. O halda "6 illik müqavilə bağlandı, niyə 1 il sonra istefaya göndərildi" kimib suallara ehtiyac qalmazdı. Qurban Qurbanov bu işi bacarmadı, yoxsa işləməyə imkan vermədilər? Məncə, hər ikisi. Dəfələrlə yazdığım kimi, Qurban Qurbanovdan o halda fövqəladə nəticə istəmək olardı ki, adama "material" verəydilər. Qurban Qurbanov məşhur nağıl qəhrəmanı Papa Karl deyildi ki, taxtadan Buratino yonsun, ona əl-ayaq qoysun, nəfəs versin, üstəlik, cibinə qızıl pul qoyub məktəbə (Avropa çempionatına) göndərsin. Bəli, Qurban Qurbanovun üstünlüyü bu idi ki, Azərbaycanda kimin futbol oynaya bildiyini hamıdan yaxşı bilir, şəxsi keyfiyyətləri ona obyektiv seçim etmək imkanı verir, müasir futbolu da şükür yaxşı mənimsəyib.

Qurban Qurbanovun futbol oynatma sistemi tənqidə gəlsə də, şəxsən mən bu barədə onun tərəfindəyəm. Çünki yalnız hücumda oynayan, yalnız müdafiə olunan komanda anlayışı yoxdur. Bu baxımdan Qurban qardaşımıza bu tipli iradları heç vaxt bölüşməmişəm və zənnimcə, istefası ilə də heç bir əlaqəsi yox...

"Qurbana işləməyə imkan vermədilər" deyənlər də çoxdur. Bu fikrin tərəfdarları da iddia edir ki, bundan əvvəl əcnəbi məşqçilərə (Berti Foqtsa 6 il, Robert Prosineçkiyə 2 il) vaxt verildiyi halda, Qurbana bu şans tanınmayıb. İnananlar inansın, amma Qurbana daha 1 il şans verilsəydi, nə dəyişəcəkdi? Axı bunu deyənlər hamıdan yaxşı bilir ki, bu problemlər 2 ilə, 5 ilə həll olunası deyil. Problemin həlli futbolumuza kompleks yanaşma, kökündən başlayan islahatlar tələb edir. Əgər Qurban daha bir il qalsaydı, Qurbanın... özü qalmayacaqdı. Necə? Meydanda ağzından süd iyi gələn uşaqlar ən yaxşı halda "İstefa!" qışqıracaqdılar, qələmini silah kimi işlədən yazarlar isə adamı haqq-nahaq hər dəfə yaralayacaqdı.

Qurban Qurbanovun istefası gerçəkləşəndən sonra bir süjetini gördüm yerli telekanallarda - adam gülürdü! Son bir ildə Qurbanı gülən görmədik, daima üzündə əzab vardı. Bəlkə süjet köhnə idi, bəlkə mən ifrata varıram, amma Qurbanın çiynindən ağır bir yük götürüldü. Bu yükü 1 il əvvəl niyə götürmüşdü, futbol rəhbərliyi niyə onun namizədliyini canı-dildən müdafiə edirdi, bunu çoxları bilir. Qurban həm də bir vətənpərvər kimi bu işə razılaşdı, təklifə biganə qalmadı, nə isə edə biləcəyinə inandı, amma... alınmadı!

***

Qurbanın "Qarabağ"a qayıtması işin xeyrinədir. "Qarabağ" bu mövsümdə bu təyinatdan zərər çəkdi. Yazdıq-pozduq, Lobanovski nümunəsini yada saldıq, "Qarabağ"ın oyunçularının millidə çoxluq təşkil etməsinin işin xeyrinə olduğuna inanmağa çalışdıq. Amma mələsəf...

Baş məşqçinin millidən istefasını "Qarabağ"ın oyunundakı zəifləmə ilə izahı 1 il əvvəl olsaydı, mənə səmimi görünərdi. İndi səmimi görünmür, amma yenə "Qarabağ"ı düşünürlərsə, sağ olsunlar. Çünki bu kluba sıradan baxmaq olmaz, bu kluba hər cür dəstək lazımdır. "Qarabağ"ın taleyi millinin taleyi qədər önəmlidir, hətta ondan bir addım daha önəmlidir. Bu mövsümdəki uğursuzluğunun birbaşa Qurban Qurbanovun təyinatı ilə əlaqəsi olmadığını bilirik. Amma bu, ciddi və gözardı ediləcək səbəb də deyildi. Qurban Qurbanovun millidən getməsi, görəcəksiz, yenə də köklü olaraq heç nəyi dəyişməyəcək. Kimi gətirəcəklər, kim gələcək bu artıq onların işi, onların problemidir. Qurban isə "Qarabağ"a lazımdır, Azərbaycan futboluna lazımdır, onun hələ görəcəyi işlər qarşıdadır...Ona görə qətiyyən təəssüflənmirəm, Qurban, "Qarabağ" amanatı deyirəm...

***

**"Qarabağ" Londona yollanır**

Cümə axşamı, dekabrın 13-də UEFA Avropa Liqasının qrup mərhələsinin sonuncu - VI turunda İngiltərənin "Arsenal" klubunun qonağı olacaq "Qarabağ" komandasının səfər proqramı bəlli olub.

Bu barədə Ağdam təmsilçisinin mətbuat xidmətindən məlumat verilib. Azərbaycan çempionu dekabrın 11-də saat 18:00-da Heydər Əliyev Beynəlxalq Hava Limanından çarter reysi ilə Londona yola düşəcək.

Baş məşqçi Qurban Qurbanovun dekabrın 12-nə nəzərdə tutulan oyunöncəsi mətbuat konfransı Bakı vaxtı ilə saat 22:30-da başlayacaq. Komandanın açıq məşqi isə 23:00-a təyin edilib.

Qeyd edək ki, Londondakı "Emireyts" stadionunda keçiriləcək matç Bakı vaxtı ilə 00:00-da başlayacaq. Bu komandalar arasında Bakı Olimpiya Stadionunda baş tutan oyun "Arsenal"ın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

❑ **Nazim SABİROĞLU**
**"Yeni Müsavat"**









YENİ MÜSAVAT

Son səhifə

*N 265 (7154) 11 dekabr 2018*



## Çinin ən gözəl balıqçısı

**Çinli bir satıcı qadın bazarda, piştaxta arxasında bir nəfərin onu çəkməsindən sonra populyarlaşıb. Fotonun qəhrəmanını dərhal “dünyanın ən gözəl balıqçısı” elan ediblər. Tayvandan olan 26 yaşlı Lyu Penpenin fotosunu anasının tapşırığına əsasən, bazara balıq almağa gələn bir satıcı qızı görərək, onun şəklini çəkib. Məlum olub ki, qız 13 yaşından etibarən piştaxta arxasında dayanıb və bu yolla da anasına yardım edib. O, bu fotonu görüb və ona isti reaksiya verən hər kəsə təşəkkür edib.**

Şəklin yayıldıqdan sonra növbəti pərəstişkarlardan ibarət bir dəstə piştaxtanın önünə yığılıb. “Mən belə reaksiyadan dəhşətə gəldim. Mən belə bir şeyi heç təsəvvürümə belə gətirə bilməzdim və buna inanmaq çətin idi”, - bunu da Lyu deyib. O, hazırda model kimi çalışır və videobloq idarə edir. “Əgər düzünü demək lazımdırsa, mən bu insanların mənim şəklimi çəkməsindənsə, daha çox balıq almalarını istərdim” - o, bunu jurnalistlərə açıqlamasında deyib.

Noyabr ayının sonunda çinlilər arasında Çinçen Czinçzin adlı qız populyarlaşmışdı. Onun fotosu polisdə, axtarışda olan insanlar siyahısında idi. Onu Çinin ən yaxşı cinayətkarı elan etmişdilər. Daha sonra o, üzə çıxdı, qanun qarşısında cavab verdi və ardınca öz populyarlığının dadını çıxardı.

# Bu saatlarda mütləq yatın

**Həkimlər xəstəliklə mübarizə aparmaq üçün saat 23:00 ilə 02:00 arasında yatmağı vacib sayır. Qrip virusunun ətrafı bürüdüyü bu günlərdə, mütəxəssislərdən tez-tez sağlam qidalanma və gigiyena qaydalarına diqqət yetirilməsi lazım olduğu barədə fikirlər eşidilir. Qriplə mübarizədə sağlam qidalanma və gigiyena qədər “sağlam bir yuxu” da son dərəcə əhəmiyyətli rol oynayır. Ciddi və yorucu iş tempinə bir də yuxusuzluq və qrip epidemiyası əlavə olununca, bədən taqətdən düşür. Keyfiyyətli və sağlam bir yuxu xəstəliklərlə mübarizədə əhəmiyyətli rol oynayır. Yuxu əsnasında xüsusilə də qaranlıqda ifraz olunan melatonin hormonu bədənə çox fayda verir.**



Melatonin ifraz olunan saatları qaçırmamaq lazımdır. Melatonin hormonu xüsusilə gecə 11-dən sonra ifraz olunmağa başlayır və gecə 2-yə qədər davam edir. Səhərə doğru isə yavaş-yavaş azalır. Ona görə xüsusilə bu saatlardakı yuxunu qaçırmaq olmaz. Təbii melatonin hormonunun ən çox qaranlıqda ifraz olunduğunu unutmamaq lazımdır. Bu səbəblə yatdığınız yerin qaranlıq olması, gecə lampasından istifadə edilməməsi çox vacibdir.

# 69 yaşlı amerikalı qadın anasını tapdı



**DNK analizi 69 yaşlı amerikalıya anasını tapmaq imkanı verib. Konni Maultrup 1949-cu ildə doğulub və övladlığa götürülənə qədər uşaq evində yaşayıb. Uşağın beş yaşı olanda ögey anası xərçəngdən dünyasını dəyişib. Ögey atasının yeni arvadı isə onu sevmirdi. Ona görə də Konni pis davranışa dözmək zorunda qalırdı. Maultrup bütün həyatı boyunca gerçək valideynlərini tapmağı arzulasa da, buna nail ola bilmirdi.**

Bir il bundan öncə qızı ona ancestry.com dəsti hədiyyə etdi ki, onun köməyi ilə və DNK testi sayəsində qohumları tapmaq mümkündür. Qadın bu servisin köməyi ilə uzaq qohumlardan biri ilə əlaqə saxlayıb və onunla anası barədə danışıb: “Mən ona dedim ki, anamın adı Ceneviv Purinton olub. Qadın isə cavabında dedi ki, ”o qadın mənim xalamdır və o, sağdır".

88 yaşlı Ceneviv Purinton tək yaşayıb. Sonradan məlum olub ki, Konninin dünyaya gəldiyi İndiana xəstəxanasında qadına uşağının doğuş zamanı öldüyü deyilib. “O, ərdə olmadığı üçün ona deyilib ki, mən ölmüşəm. O, bütün həyatı boyu mənim varlığımdan xəbərsiz yaşayıb”.

1973-cü ilə qədər Amerikada nikahdan kənar uşaqların doğulan kimi analarından ayrı salınması geniş yayılmış təcrübə idi. 1973-cü ildə abort qüvvəyə mindi

2017-ci ildə belə bir xəbər yayılmışdı ki, Havay adalarında 60 il boyunca dostluq edən iki nəfər ancestry.com saytı vasitəsilə ana bir, ata ayrı qardaş olduqlarını öyrəniblər.





**QOÇ** - Göy qübbəsi məsləhət görür ki, nahara qədər enerjinizi dağıtmayasınız. Çünki sonrakı müddətdə bir neçə istiqamətdə fəallaşacağınız gözlənilir. Axşam riskli görüşlərə razılıq verməyin.

**BUĞA** - Maraqlı və zövqlü bir gün yaşayacaqsınız. Sizi dəstəkləyənlər də çoxalacaq. Xeyirxah əməllərinizin sayını artırın. Təxminən saat 16-dan etibarən fəaliyyətinizdə dönüş olmalıdır.

**ƏKİZLƏR** - Qarşınızda bir qədər gərgin gün durduğundan bacardığınız qədər təmkin nümayiş etdirməlisiniz. Ailədaxili problemlərinizin həllinə çalışın, onlarla birlikdə əylənməyə çalışın.

**XƏRÇƏNG** - Günün ilk yarısında bir qədər pərişanlığınız gözlənilir. İnsanlara münasibətinizi dəyişin. İşlə bağlı gözləntiləriniz müsbət nəticə verməlidir. Digər yeniliklər də gözlənilir.

**ŞİR** - İlk növbədə şəxsi büdcənizin durumunu dirçəltməyə çalışın. Çünki indiki məqamda problemlərinizin az qala hamısı pula bağlıdır. Əgər planlaşdırmısınızsa, səfərə çıxa bilərsiniz.

**QIZ** - Yalnız münasibətləri düzəltmək baxımından uğurlu gündür. Bu səbəbdən fəaliyyətə çox da aludə olmayın. Vəziyyəti dirçəltmək üçün ilk növbədə ailədən başlayın. Onların könlünü alın.

**TƏRƏZİ** - Maliyyə çətinliyiniz olsa da, bu tarixi sıxıntı içində başa vurmayacaqsınız. Əksinə, qarşınıza çıxan insanlar sizə böyük ümidlər verəcək. Dəyərli məsləhətləri eşitməyə hazır olun.

**ƏQRƏB** - Qarşınızda xoş bir gün durub. Qarşılıqlı münasibətlərdə mövcud olan kəm-kəsirlər xeyli yumşalacaq. Yüksək çinli adamlarla görüşləriniz perspektivlərinizi reallığa yaxınlaşdıracaq.

**OXATAN** - Səhhətinizin qayğısına qalsanız, gün ərzində digər xoşagəlməzliklərlə rastlaşmayacaqsınız. Xüsusən də nəqliyyatda ehtiyatlı olmalısınız. Tanımadığınız adamlarla təmasa girməyin.

**OĞLAQ** - İşlə bağlı aktivliyinizi artırın. Aldığınız hər bir tapşırığı ləyaqətlə icra edin. İnsanlara elə münasibət göstərin ki, qoy sizə güvənənlər daha da etibar etsin. Əks cinslərə qarşı kobud olmayın.

**SUTÖKƏN** - Səhər saat 05:38-dən mənfi yüklü Ay bürcünüzə daxil olduğu üçün nəzərdə tutduğunuz işlərin həyata keçməsində əngəl ola bilər. Qətiyyətinizi azaltmayın. Bu gün maddi durumunuzda irəliləyiş olsa da, səhhətinizi də qorumalısınız.

**BALIQLAR** - Ulduzlar məsləhət görür ki, gün ərzində özünüzü çox yormayasınız. Vaxt tapıb qohum-əqrabanıza da baş çəkin. Günün ikinci yarısında işgüzar sövdələşmələrə başlamaq uğurlu nəticə verəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Həkimlər əllərini yumadıqları üçün... xəstələr daha çox xəstələnir



**Ümumdünya Səhiyyə Təşkilatı açıqlayıb ki, həkimlərin 40 faizi əl gigiyenasına diqqət etmir. İtaliya, Mali, Pakistan və Səudiyyə Ərəbistanın 43 xəstəxanasında aparılan araşdırma nəticəsində tibb bacılarının da 29 faizinin əl gigiyenasına əhəmiyyət vermədiyi üzə çıxıb. Dünyanin 168 ölkəsində həkim, tibb bacısı və digər tibb işçiləri arasında “Təmizlik təhlükəsizlikdir” şüarı ilə keçirilən kampaniya çərçivəsində onlara təmizliklə bağlı təlim verilir. ÜST həmçinin açıqlayıb ki, müalicə zamanı yoluxan xəstəliklərin çoxu səhiyyə işçilərinin xəstəyə toxunması ilə keçən mikroblardan qaynaqlanır. İnkişaf etmiş ölkələrdə hər 100 xəstədən 7-si, inkişaf etməkdə olan ölkələrdə isə hər 100 xəstədən 10-u bu mikrob ucbatından xəstələnir. Son illərdə bu sahədə aparılan təbliğat sayəsində isə əl gigiyenasına diqqət etmə faizi 51 faizdən 67 faizə qədər artıb.**

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100